

**Qars müqaviləsindən Şuşa Bəyannaməsinədək - 100 ildə bölgənin geosiyasi mənzərəsi necə dəyişib**


# Səs

№ 185 (6385) 12 oktyabr 2021-ci il. Qiymәti 40 qәpik




# İlham Əliyev: "Bu gün artıq Qarabağın yeni dövrü başlayır"

Səhifə 2



Leyla Əliyevanın iştirakı ilə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyətin açılışı olub

5

# Böyük alim və qayğıkeş ana - AİDA İMANQULİYEVA



Səhifə 7

Azərbaycanın yenidən dövlət müstəqilliyini əldə etməsi xalqımızın həyatında mühüm tarixi hadisə oldu



Səhifə 8

# Ermənistanın müharibə cinayətləri: Gəncə terroru



Səhifə 10



**Ukraynalı videobloger:** "İndi Cıdır düzündə Azərbaycanın Dövlət Bayrağı dalğalanır"

Ukraynanın "Pryamiy" telekanalının "Həftə" ("The Week") verilişində 44 günlük Vətən müharibəsinin ildönümü ərəfəsində Azərbaycanın işğaldan azad...

9

## Sorosu Azərbaycana kim qaytardı (USAİD-in köməkliyi ilə)?

ANALİTİKA+ŞOK FAKTLAR!

EAST · WEST MANAGEMENT INSTITUTE



Səhifə 12



## Baydenin oğlu yarım milyonluq yardım edib

Səhifə 16



**Rus jurnalist: "Şuşada ermənilər müvəqqəti olduqlarını və gec-tez oradan getməli olduqlarını başa düşdülər"**

15

İqor Serebryanıy: "Şuşada və Füzulinin özündə bu xarabalıqlarda təcavüz hissi var idi ki, orada heç kim yoxdur, amma qəsdən dağıdıblar və bunu...



**Qida mütəxəssisi: "Payızda bu qidalardan uzaq durmanız məsləhətdir"**

16

"Ümumiyyətlə, payız mövsümündə daha çox insanlar depressiyadan əziyyət çəkirlər. Təbii ki, bu depressiya ilk olaraq mövsümün...

# İlham Əliyev: "Bu gün artıq Qarabağın yeni dövrü başlayır!"



## Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Hadrut qəsəbəsində yeni məscidin təməlini qoyub.**

Məlumat verildi ki, Hadrut qəsəbəsində yerli əhali üçün inşa ediləcək məscidin minarəsi 26 metr olacaq. Eyni vaxtda 250 nəfərin ibadəti üçün nəzərdə tutulan məscidin ikinci mərtəbəsində qadınların ibadət otağı yerləşəcək. Məscidin fasadında xüsusi bəzək elementlərindən istifadə olunacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işlərinin gedişi ilə tanış olub. Prezident İlham Əliyevin tapşırığına əsasən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastruktur layihələrinin icrası davam edir. Bu barədə məlumat verən Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov bildirib ki, belə layihələrdən biri də Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoludur.

Qeyd edək ki, Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolu başlanğıcını Cəbrayıl rayonu Şükürbəyli kəndindən keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinə qədər uzanır. Tikintisi aparılan yolun uzunluğu 39,7 kilometrdir. Yol 4 hərəkət zolaqlı olmaqla birinci texniki dərəcəyə uyğun inşa edilir. Hazırda bu yolda torpaq işləri və süni qurğuların inşası prosesi gedir. Bundan əlavə, yol boyunca 7 yeni avtomobil körpüsünün inşası davam edir. Körpülərdən biri Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolu ilə kəsişmədə layihələndirilib. Bununla da sözügedən avtomobil yolundan magistral yola rahat giriş-çıxış təmin olunacaq. Görülən işlərə paralel olaraq, tikinti ərazisinə cəlb olunmuş xüsusi texnikaların çevik hərəkətinin təmin olunması məqsədilə yol çiyinlərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işləri də aparılır. Dövlətimizin başçısına Füzuli-Hadrut avtomobil yolunun layihəsi barədə də məlumat verilib.











> "Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsindəki əməliyyatlar sırasında xüsusi əhəmiyyət daşıyan əməliyyatdır"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da yeni "Hadrut" qovşaq yarımstansiyasının təməlini qoyub. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin ötən ilin oktyabrında imzaladığı "İşğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərmanının icrası məqsədilə bütün inzibati ərazilərdə dağıdılan paylayıcı elektrik şəbəkələrinin qəza vəziyyətindən çıxarılması istiqamətində işlərə başlanılıb. "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov bildirib ki, ilk növbədə, Hadrut qəsəbəsini elektrik enerjisi ilə təmin etmək üçün Füzuli rayonundakı 110/35/10 kV-luq "Şükürbəyli" yarımstansiyasından "Hadrut" yarımstansiyasına qədər uzunluğu 27 kilometr olan 35 kV-luq ikidövrəli hava xətti çəkilib.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

Bununla da Hadrut qəsəbəsində yerləşən strateji obyektlər elektrik enerjisi ilə təchiz edilib. Şuşa şəhərinin qısa vaxtda elektrik enerjisi ilə təmin olunması üçün 35/10 kV-luq ”Daşaltı” yarımstansiyası inşa edilib. Yarımstansiyanı qidalandırmaq üçün ”Hadrut” yarımstansiyasından 53,5 kilometr uzunluğunda elektrik veriliş xətti çəkilib. ”Hadrut”-”Daşaltı” elektrik veriliş xətti vasitəsilə ilkin mərhələdə Şuşa şəhərinin, Xocavənd rayonunun bəzi kəndlərinin və ətraf ərazilərdəki mühüm strateji obyektlərin, eyni zamanda, bu istiqamətdə aparılan yol infrastrukturu və digər tikinti işlərinin elektrik təchizatı təmin edilib. Xəttin keçdiyi ərazi öncə minalardan təmizlənib. Çətin relyef, qar və şaxtalı hava şəraitinə baxmayaraq 37 gün ərzində gecə-gündüz aparılan işlərdən sonra bu il yanvarın 7-də Şuşa şəhərində Azərbaycan işığını yandırmaq mümkün olub. ”Hadrut” yarımstansiyası hazırkı vəziyyətdə belə işğaldan azad olunmuş əksər ərazilərə elektrik enerjisinin ötürülməsində önəmli funksiyanı yerinə yetirir. İnnovativ yeniliklərin tətbiqi ilə yeni inşa olunacaq yarımstansiyanın da perspektiv plan üçün önəmi çox böyükdür. Belə ki, ”Şükürbəyli”, ”Hadrut” və ”Şuşa” yarımstansiyaları arasında yaradılmış 35 kV-luq dairəvi elektrik təchizat sxeminə daxil olan yeni ”Hadrut” qovşaq yarımstansiyası Hadrut qəsəbəsində qurulacaq müxtəlif təyinatlı infrastrukturun elektrik enerjisinə olan tələbatını qarşılayacaq. ”Hadrut” yarımstansiyasının əvəzində tikiləcək müasir tipli bu yeni yarımstansiya Xocavənd rayonunun bir hissəsinin, Şuşa və ətraf ərazilərin elektrik təchizatının etibarlılığını və dayanıqlılığını təmin edəcək. Yarımstansiyada Ağıllı Elektrik Şəbəkələrinin İdarəolunması Mərkəzinin yaradılması elektrik enerjisinin paylanması prosesinə fasiləsiz nəzarətin təmin edilməsinə, enerji səmərəliliyinə, elektrik enerjisinin fasiləsizliyinə və keyfiyyətinin artırılmasına zəmin yaradacaq. Prezident İlham Əliyev yeni ”Hadrut” qovşaq yarımstansiyasının təməlini qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev çıxışında diqqətə çatdırıb ki, bu gün artıq Hadrutun və ümumiyyətlə Qarabağın yeni dövrü başlayır. Dövlətimizin başçısı qeyd edib ki,

# İlham Əliyev:

## “Bu gün artıq Qarabağın yeni dövrü başlayır!”



### Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Dəniz nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb.

## Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib

Hadrut əməliyyatı İkinci Qarabağ müharibəsindəki əməliyyatlar sırasında xüsusi əhəmiyyət daşıyan əməliyyatdır. Həm hərbi nöqteyi-nəzərdən, həm strateji nöqteyi-nəzərdən bu əməliyyatın çox böyük əhəmiyyəti var idi: ”Bu əməliyyatın uğurla başa çatması bizə imkan verdi ki, öz hədəfimizə - Qarabağın azad edilməsinə nail olaq. Hadrutun yerləşməsi bu bölgədə strateji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir, çünki dağlıq ərazidir. Qəsəbə ətrafında yerləşən təpələr böyük əraziyə nəzarət etməyə imkan verir və Hadrutu götürmək hərbi nöqteyi-nəzərdən çox çətin idi. Eyni zamanda, Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı. Onu da bildirməliyəm, baxmayaraq ki, müharibə zamanı Ermənistan ordusunda on mindən çox fərari olmuşdur və bəzi yaşayış məntəqələrindən onlar tələm-tələsik qaçaraq çıxmışdılar, amma Hadrutda direniş göstərdilər, müqavimət göstərdilər və burada gedən şiddətli döyüşlər bir neçə gün davam etmişdir. Buna baxmayaraq, Azərbaycan əsgəri, zabiti qarşısında onlar öz acizliyini dərk edərək burada da məğlubiyyətə uğradılar.

Hadrut əməliyyatının əhəmiyyəti ondadır ki, Ermənistan rəhbərliyi və Ermənistan ordusu gözləmirdi ki, biz Cəbrayıldan sonra Hadrut istiqamətinə gedəcəyik. Onlar hesab edirdilər ki, biz Füzuli istiqamətinə gedəcəyik. Baxmayaraq ki, Hadrutda onların çox böyük canlı qüvvəsi var idi, bizi gözləmirdilər. Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək doğrudan da çox böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik. Göstərdik ki, heç kim və heç nə bizim qabağımızda dura bilməz, nəyin bahasına olursa-olsun, biz bütün torpaqlarımızı azad edəcəyik.

Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, Hadrut əməliyyatı ilə bağlı Ermənistan mətbuatında yalan informasiyalar kifayət qədər çox idi. Biz artıq Hadrutun ətrafında yerləşən bütün dağları işğalçılardan təmizləyəndən sonra aydın oldu ki, qəsəbənin götürülməsi, sadəcə olaraq, müəyyən zaman tələb edir. Biz az itkilərlə qəsəbəni götürmək əzmində idik və buna da nail olduq. Ermənistan rəhbərliyi və Ermənistan Müdafiə Nazirliyi isə bəyan edirdi ki, Hadrut ermənilərin əlindədir. Guya ki, onlar növbəti dəfə taktiki geriləmə ediblər və indi Hadruta qayıdıblar, Azərbaycan əsgərlərini Hadrutdan çıxarıblar. Bütün bu yalanları müşahidə edərək, sadəcə olaraq, təəccüb edirdim. Çünki açıq-aydın idi ki, Hadrut artıq bizdədir. Mən əmr verdim Hadrutda Azərbaycan bayrağı qaldırılsın ki, ermənilərin bu yalanlarına son qoyulsun. Ancaq ondan sonra - Azərbaycan əsgər və zabitləri bizim dövlət bayrağımızı Hadrutda qaldırıb mənə raport verəndən sonra artıq Ermənistan rəsmi təbliğatı etiraf etdi ki, Hadrut Azərbaycan Ordusunun nəzarətindədir.

Bu, bir daha onu göstərir ki, Ermənistan təbliğatı istər işğal dövründə, istər müharibə dövründə, istərsə də postmüharibə dövründə yalan üzərində qurulub. Onların tarixi də saxtadır, keçmişi də saxtadır, dövlətçiliyi də saxtadır, mifologiyası da saxtadır. Sadəcə olaraq, dünya erməniliyi yaşadığı ölkələrdə elə bir yalan rəy yaradıb ki, sanki Ermənistan əhalisi əsrlər boyu burada yaşayıb. Hadruta ermənilər İrandan XIX əsrdə köçürülüblər. Bunu hamı bilir. O vaxta qədər burada erməni yaşamırdı. Tarixi saxtalaşdıraraq, bu gün də bugünkü reallıqları saxtalaşdırırlar.

> “Ermənistan rəhbərliyi, onun keçmiş oğru rəhbərliyi, sadəcə olaraq, dünyanın zəngin ermənilərini aldadaraq, marafonlar düzəldərək o pulları cəlb edib özləri üçün bildikləri kimi xərcləyiblər”

Ardı Səh. 4



Əvvəli Səh. 3



# İlham Əliyev:

## "Bu gün artıq Qarabağın yeni dövrü başlayır!"

### Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib

Müharibə dövründə biz Ermənistan rəsmi orqanlarından nə qədər yalan eşitdik. Onların Müdafiə Nazirliyindən, - yəqin ki, onun adını gərək dəyişdirib yalan nazirliyi qoysunlar, - o qədər yalan, o qədər cəfəng informasiyalar gəlirdi ki, həm biz, həm də beynəlxalq ekspertlər, sadəcə olaraq, təəccüb edirdilər. Hadrutla bağlı bu yalanın dərəcəsi ən pik həddə çatmışdı. Çünki Hadrutun azad edilməsi Ermənistana çox böyük mənəvi-psixoloji sarsıntı yaşatdı.

Birincisi ona görə ki, onlar hesab edirdilər, Azərbaycan Ordusu Hadrutu heç vaxt azad edə bilməz. İkincisi ona görə ki, Hadrut keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun inzibati mərkəzi idi, rayon mərkəzi idi. Ermənistan rəhbərliyi və Ermənistan ictimaiyyəti gördü ki, bizim üçün bütün torpaqlar bizim torpaqdır - istər Füzuli olsun, istər Cəbrayıl olsun, istər Zəngilan olsun, istər Hadrut olsun, Şuşa olsun, Suqovuşan olsun. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşən yaşayış qəsəbələrini işğalçılardan azad etmək Ermənistana göstərdi ki, Ermənistan torpaqlarımızdan çıxmaq haqqında öhdəlik götürməyənə qədər biz dayanmayacağıq və dayanmadıq. Ermənistan artıq kapitulyasiya aktına imza atmağa hazır olduqdan, bizə bu haqda məlumat daxil olduqdan sonra dedik ki, bəli, dayanırıq və dayandıq, qalan rayonları siyasi yollarla geri qaytardıq.

Ona görə Hadrut əməliyyatının həm strateji, həm tarixi, həm mənəvi-psixoloji baxımdan çox böyük əhəmiyyəti var idi. Bu gün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Hadrut rayonu işğalçılardan tam azad edilmişdir. Müharibə başa çatandan sonra Ermənistanın Şirak vilayətindən keçmiş Hadrut rayonunun bəzi kəndlərinə xüsusi diversiya qrupu göndərilmişdi. Onlar noyabrın sonlarında Laçın dəhlizindən keçərək bu bölgələrə daxil oldular və bildiyiniz kimi, tərk-silah edildilər, həbs olundular. Cinayət törətməmiş hərbçilər geri qaytarıldı, cinayət törətmiş hərbçilər, diversantlar artıq məhkəmə qarşısında cavab verməli oldular. Yəni, onu demək istəyirəm ki, hətta müharibə başa çatandan, Ermənistan kapitulyasiya aktına imza atandan təxminən 20 gün, iki həftə sonra onlar yenə də Hadruta hücum etməyə çalışdılar. Amma Azərbaycan Silahlı Qüvvələri lazımi addımları atmışdı.

Azərbaycanın inzibati-ərazi bölgüsünə görə Hadrut qəsəbəsi Xocavənd rayonunun tərkib hissəsidir və vaxtilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olan Hadrut və Martuni rayonlarını biz birləşdirdik və Xocavənd rayonu yaradıldı. Onu da bildirməliyəm ki, keçmiş Martuni rayonunun da təqribən 55-60 faizi işğalçılardan azad edilib və Azərbaycan vətəndaşları o bölgələrə də qayıdacaqlar.

Hadrut qəsəbəsinə baxdıqda hər kəs bir daha görür ki, ermənilər bu torpaqları özləri üçün doğma torpaq saymırdılar. Çünki baxın, nə gündədir Hadrut. Siz Hadrutu tanıyırsınız, burada yaşamısınız, olmusunuz, yaxın kəndlərdə də yaşamısınız, burada bir neçə kəndin nümayəndələri var. Burada demək olar ki, 30 il ərzində heç nə dəyişilməyib, hərbçilər üçün iki bina tikilmişdi, bir məktəb də təmir olunmuşdu. Qalan bütün binalar necə var idi, elə də qalıb. Yəni, kütləvi səfalət hökm sürüb, bir daş daş üstünə qoyulmayıb. Görün yollar, binalar nə gündədir. Bəzi binalarda ümumiyyətlə insan necə yaşaya bilər, böyük sualdır. Sual olunur, bəs 30 il ərzində Ermənistan dövləti xarici ermənilərdən milyonlarla pul alıb. Onlar hər il marafon düzəldirdilər, hər il təqribən yüz milyon dollardan çox pul yığılırdı. Onu vurun 30 ilə, görün təxminən nə qədər pul edir. Mən indi bütün bu bölgələrə gedirəm - Hadrutda da, Hadrutun kəndlərinin bir çoxunda da, Xocalının Çanaqçı, Sığnax kəndlərində də olmuşam. Azıx olsun, Tuğ olsun, Susanlı olsun və başqa kəndlər - hamısı bərbad vəziyyətdədir. İndi bizim inşaatçılar bəzi kəndlərə gedirlər, təhlil aparırlar ki, binaların 95 faizi yararsız vəziyyətdədir. Bəs, yığılan bu milyardlar hara gedib? Deməli, Ermənistan rəhbərliyi, onun keçmiş oğru rəhbərliyi, sadəcə olaraq, dünyanın zəngin ermənilərini aldadaraq, marafonlar düzəldərək o pulları cəlb edib özləri üçün bildikləri kimi xərcləyiblər.

Onların böyük bir fondu var, adı Hayastandır. Bilməyənlər üçün deyə bilərəm ki, Hayastan, əslində, Ermənistan deməkdir. Bilmirəm nəyə görə ingilis dilində, rus dilində Hayastana Armenia deyirlər, çünki ermənilər özlərini hay adlandırırlar, öz ölkəsini Armenia yox, Hayastan adlandırırlar. Bu, tarixçilərin işidir. Mən bunun səbəbini bilirəm, amma yəqin ki, gərək Azərbaycan tarixçiləri də daha dolğun tədqiqatlar aparsınlar. Yəni, bu Hayastan fondu dediyim kimi, bəlkə də bir neçə milyard pul yığmışdır. Həmçinin Amerikada yaşayan zəngin ermənilər öz xüsusi fondlarını yaradıblar, öz ailə üzvlərinə aid fondlar yaradıblar. Otuz il ərzində bəlkə də ən azı bir neçə milyard pul yığılıbdır və o pulun taleyi, necə deyərlər, məlum deyil. Çünki azad edilmiş bütün yerlərə baxdıqda, hətta erməni əhalinin yaşadığı yerlərə baxdıqda, orada heç bir inkişafın əsər-əlaməti yoxdur. Görün Şuşa nə gündədir. Onlar Şuşanı bütün dünyaya öz şəhəri kimi qələmə verməyə çalışırdılar, bu gün də çalışırlar. Əgər sənin şəhərindirsə, niyə bu gündədir?! Şuşada bir dənə də yeni bina yoxdur. İki yeni bina var. Biri separatçıların rəhbərlərinə məxsusdur, biri də xaricdə yaşayan başqa bir zəngin erməniyə. Özü də villalardır, öz şəxsi evləridir. Bir dənə də bina yoxdur. Şuşadakı 17 bulağın, 17-si də qurudulub. Yaxşı, bu, sənin şəhərindirsə, niyə bu gündədir?!

İndi burada əyləşənlərin bir neçəsi Tuğ kəndindəndir. Mən sizi Tuğ kəndinə də aparacağam, görərsiniz kəndi nə günə qoyublar. Mən orada olanda dəhşətə gəldim.

> "İşğalı bundan sonra 30 il də davam etdirmək istəyirdilər. Beynəlxalq ictimaiyyət də, bu məsələ ilə məşğul olanlar da demək olar ki, buna göz yumurdular. Biz buna son qoyduq"

Ardı Səh. 5





# İlham Əliyev: “Bu gün artıq Qarabağın yeni dövrü başlayır!”

## Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər edib

Əvvəli Səh. 4

Onlar Tuğda hər il müxtəlif festivallar təşkil edirdilər. Xaricdən qonaqlar cəlb olunurdu, gəlirdilər və belə bir videogörüntü yaradılırdı ki, sanki çox inkişaf etmiş yerdir. Dağılmış vəziyyətdədir, məktəb dağılıb, mədəniyyət evi dağılıb, binalar demək olar ki, hamısı köhnəlib. Yəni, bax, budur Ermənistan işğalının əsl siması.

Onlar bizim torpağımızı işğal ediblər, Azərbaycan əhalisini etnik təmizləməyə məruz qoyublar, bütün evləri, binaları, tarixi abidələri dağıdıblar və özləri üçün də bir həyat qurmayıblar. İşğalı bundan sonra 30 il də davam etdirmək istəyirdilər. Beynəlxalq ictimaiyyət də, bu məsələ ilə məşğul olanlar da demək olar ki, buna göz yumurdular. Biz buna son qoyduq. Bir il bundan əvvəl Hadrutun azad olunması bir daha demək istəyirəm ki, tarixi hadisə sayıla bilər. Çünki bundan sonra biz artıq müxtəlif istiqamətlər üzrə Zəfər yürüşümüzü davam etdirdik. Bir istiqamət Füzuli istiqaməti idi. Hadrut azad olunandan heç 10 gün keçməmiş biz Füzulini azad etdik. Digər istiqamət Şuşa istiqaməti idi. Bax, o Zəfər yolu dediyimiz tarixi yol, o cümlədən Hadrut meşələrindən keçirdi. Beləliklə, Füzuli oktyabrın 17-də götürüləndən sonra Ermənistana daha böyük zərbə oldu. Çünki artıq Cəbrayıl, Hadrut, Füzuli, yəni böyük yaşayış məntəqələri işğaldan azad edildi və müharibənin sonrakı gedişatını hər kəs bilir.

Biz Hadrutu bərpa edəcəyik. Hadrutun baş planı, onun ilkin versiyası mənə təqdim edildi. Mənim bir çox iradlarım olub, ona görə mən bu gün o planı gətirmədim. Çünki hələ onun üzərində işləmək lazımdır. Ancaq hesab edirəm ki, yaxın 1 ay ərzində bizim memarlar, inşaatçılar yeni plan üzərində işləyəcəklər, təqdim olunacaq və biz onu təsdiq edəcəyik.

Bu gün isə artıq Hadrutun bərpası işlərinə start verildi. Avtomobil yolunun təməli qoyuldu. Dördzolaqlı Hadrut-Cəbrayıl, Hadrut-Füzuli avtomobil yolları çəkiləcək, ”Hadrut” yarımstansiyası tikiləcək, onun təməli qoyuldu və Hadrutda məscidin tikintisinə də start verildi. Məscidin də təməlini mən qoydum və hesab edirəm ki, bu da tarixi hadisədir. Çünki sovet vaxtında Hadrut qəsəbəsində yaşayanların əksəriyyəti ermənilər idi. Onlar, əlbəttə ki, burada məscidin inşasına imkan verməzdilər və bilirik ki, bütövlükdə sovet dövründə - ateizm dövründə məscid tikmək mümkün deyildi.

Biz həm tarixi ədaləti bərpa edirik, həm bizim dini-mənəvi dəyərlərimizə sədaqət göstəririk. Eyni zamanda, artıq yarımstansiya, yol əsas infrastruktur layihələrindən biridir və digər layihələr də icra ediləcək. Hadrutun tarixi hissəsi yenidən qurulacaq. Artıq binaların təmiri ilə bağlı ilkin görüntülər var və eyni zamanda, qəsəbədə müşahidə olunan bu səliqəsizlik adamı incidir. Qəsəbəni bu gündə təsəvvür etmək mümkün deyil. Ona görə biz Hadrutu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik.

Qəsəbənin və Xocavənd rayonunun inkişafı ilə bağlı əsas istiqamət kənd təsərrüfatı olacaq - bitkiçilik, heyvandarlıq, üzümçülük. Burada üzümçülük ənənələri olubdur, üzüm üçün çox münbit şərait var. Kənd təsərrüfatı ilə bərabər, bura çox dəyərli turizm mərkəzi olacaq. Çünki Xocavənd rayonunun turizm potensialı çox genişdir. Bura təbiətcə çox zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar, cənnətə oxşayan bir yerdir. Tarixi abidələr, körpülər, eyni zamanda, məşhur Azıx mağarası, Tağlar mağarası - bunlar burada yerləşir. Ermənilər Azıx mağarasını da erməniləşdirmək istəmişdilər. Bunların cəfəngiyyatının dərəcəsinə baxın, onlar bəyan edirdilər ki, Azıx mağarasında ermənilər yaşayıblar. Adam bilmir gülsün, yoxsa neynəsin. Azıx mağarasını aşkarlayan da azərbaycanlı arxeoloqlar olmuşlar. O arxeoloqlar böyük tədqiqat işləri aparmışdılar. Ermənilər, sadəcə olaraq, təbliğat üçün dünyanın bir neçə ölkəsindən alimlər gətirərək burada şou yaradırdılar. Demək olar ki, mağaraya böyük ziyan vurublar. Keçən dəfə mən burada olanda o mağaranın girişinə qədər qalxdım. Tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri, otellər tikmək üçün azərbaycanlı və xarici investorları da dəvət etmək istəyirəm. Çünki dünyada Xocavənd kimi, Hadrut qəsəbəsi kimi gözəl səfalı yerlər çox azdır. Ermənilər Kəlbəcərdəki, Laçındakı və digər yerlərdəki meşələrimizi qırıblar. Kəlbəcər, Laçın, Zəngilan rayonlarında 60 min hektara yaxın meşə sahəsi tamamilə məhv edilib, qırıblar, yandırıblar, Cəbrayılda da, həmçinin, amma burada yox. Ona görə burada təbiət demək olar ki, toxunulmaz qalıb. Bir də ki, burada faktiki olaraq əhali yox idi. Hadrutda bəlkə min nəfər yaşayırdı-yaşamırdı. Əhali yox idi. Ona görə bax, bu bölgənin saf təbiətini biz qorumalıyıq. Vətəndaşlar bura qayıtdıqdan sonra, ilk növbədə, bu təbiətin qorunmasına gərək özləri fikir versinlər və əlbəttə, dövlət də öz üzərinə düşən vəzifələri icra edəcək.”

# Leyla Əliyevanın iştirakı ilə “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyətin açılışı olub

İDEA İctimai Birliyi tərəfindən həyata keçirilən ”Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət oktyabrın 11-də sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Bakının Xətai rayonu, Məzahir Rüstəmov küçəsi, 9, 11, 13, 17 ünvanında yerləşir və 2300 sakinin yaşadığı məhəlləni əhatə edir.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib. Leyla Əliyeva həyətdə aparılan abadlıq işləri ilə tanış olub, sakinlərlə söhbət edib, onlarla şəkillər çəkdirib.







Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları qurulub, futbol, basketbol, şahmat meydançaları və uşaq meydançaları salınıb, velosiped yolu çəkilib. Həyətin ərazisində 13 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri təmir olunub, yeni su xətti çəkilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət edilməklə 600 ədəd ağac əkilib.

Məhəllə sakini Namiq Mirzəyev saxladığı göyərçinlər üçün geniş yuvanın tikilməsinə görə minnətdarlıq edərək deyib: ”Göyərçinlər çoxdandır ki, bizim həyətdə məskən salıblar. Onların yeri dar idi və havalandırmaları yox idi. Minnətdarıq ki, onlar üçün gözəl şərait yaradıblar. Yerləri geniş, yuvaları rahatdır. Göyərçinlərin sayı 80-dir. Yerin genişliyindən istifadə edərək saylarını artırmağa çalışırıq. Balacalara onlar haqqında məlumat verir, sülh rəmzi olduğunu başa salırıq. Tədbirlərdə sülh rəmzi kimi onları göylərə buraxırıq”.

İyirmi ilə yaxındır həmin məhəllədə yaşayan müəllimə Naibə Cəfərova bildirib ki, çox bərbad vəziyyətdə olan həyətin belə abadlaşdırılması, idman meydançalarının, uşaqlar üçün əyləncə yerlərinin quraşdırılması böyüklərlə yanaşı, balacaları da sevindirir: ”Aparılan abadlaşdırma işləri zamanı bütün yaş qrupları, hətta sağlamlıq imkanları məhdud olanlar da nəzərə alınıb. Axşamlar ürək rahatlığı ilə həyətə düşür, açıq havada gəzir, söhbətgahda oturub söhbət edə bilirik. Balacalar da onlar üçün quraşdırılan əyləncə yerlərində doyunca əylənirlər. Uşaqlar futbol, şahmat, basketbol oynayırlar. Həmçinin həyətdə ağaclar da əkilib. Bu da həm həyəti daha da gözəlləşdirib, həm də məhəllə sakinlərinin sağlamlığına xidmət edir. Yaradılan şəraitə görə IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevaya təşəkkür edirəm”.

Təqaüdçü Xan Şəmsəddinovun sözlərinə görə, 20 ildir həmin məhəllədə yaşasa da, bu illər ərzində həyət heç vaxt belə abad olmayıb. O deyib: ”Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən ”Bizim həyət” layihəsi çərçivəsində xeyli sayda həyətin təmir olunduğunu və sakinlərin istifadəsinə verildiyini eşitmişdik. Çox sevinirik ki, layihə çərçivəsində abadlaşdırılan həyətlərdən biri də bizim həyət oldu. Ötən il dövlətimizin başçısı Qarabağımızı azad edərək bizə çox böyük bir sevinc bəxş etmişdi. Bu il də həyətimizin abadlaşdırılmasının sevinci bizə qismət oldu. Prezident İlham Əliyev və onun ailə üzvlərinə xalqın sevincinə səbəb olan xeyirxah işlərinə, əhaliyə göstərdikləri diqqət və qayğıya görə minnətdaram”.

Qeyd edək ki, ”Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Həmin layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmağa ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələr IDEA İctimai Birliyinə təqdim edilə bilər.

# "Ermənistanın məqsədi həmin ərazilərdə əsrlər boyu yaşamış Azərbaycan xalqının izini silmək idi"



## Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Yüksək Səviyyəli Toplantısında videoformatda çıxış edib

**Oktyabrın 11-də Serbiyanın paytaxtı Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantı öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev tədbirin rəsmi açılış hissəsinə sədrlik edib. Dövlətimizin başçısı tədbirdə videoformatda çıxış edib.**

Prezident İlham Əliyev öz çıxışı diqqətə çatdırıb ki, qısa müddət ərzində Azərbaycan Hərəkatın üzvləri arasında böyük etimad və hörmət qazandı, 2016-cı ildə Qoşulmama Hərəkatının liderlərinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının sədri seçildi:

-Hörmətli Prezident Vuçiç.

Xanımlar və cənablar.

İlk növbədə, mən Serbiya Prezidenti cənab Aleksandar Vuçiçə Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantıya ev sahibliyi etməsinə görə təşəkkür etmək istəyirəm. Bu təşəbbüs Serbiyanın özünün tarixi irsinə və Qoşulmama Hərəkatının prinsiplərinə sadiqliyini nümayiş etdirir.

1961-ci ildə Belqradda təsis edildiyi vaxtdan Qoşulmama Hərəkatı qlobal sülh, ədalət və həmrəylik naminə həyata keçirdiyi səylər vasitəsilə beynəlxalq arenada mühüm rol oynamışdır.

BMT Baş Assambleyasından sonra ikinci ən böyük təsisat olan Qoşulmama Hərəkatı müxtəlif regionları əhatə edərək fərqli tarixi, siyasi və mədəni mənsubiyyətə malik 120 ölkəni birləşdirməklə, multilateralizmin həqiqi nümunəsi hesab edilir.

Suverenlik və ərazi bütövlüyünə hörmət, təcavüz aktlarından çəkinmə, başqalarının daxili işlərinə qarışmama kimi prinsipləri özündə ehtiva edən tarixi Bandunq prinsipləri Qoşulmama Hərəkatının təməlində dayanır. Bu prinsiplər müasir beynəlxalq münasibətlərdə aktual və vacib olaraq qalır. Əgər bütün ölkələr Bandunq prinsiplərinə riayət etsəydilər, onda biz dünyada müharibələr və münaqişələr görməzdik.

Zor tətbiq etməklə dövlətlərin ərazi bütövlüyünün pozulması qətiyyən qəbuledilməzdir. Azərbaycan bütün ölkələrin suverenliyi və ərazi bütövlüyü prinsiplərini tam dəstəkləyir.

Sülhün, təhlükəsizliyin, beynəlxalq hüququn və ədalətin gücləndirilməsinə töhfə vermək üçün Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatı ailəsinə qoşulmaq qərarına gəldi. Qısa müddət ərzində Azərbaycan Hərəkatın üzvləri arasında böyük etimad və hörmət qazandı, 2016-cı ildə Qoşulmama Hərəkatının liderlərinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının sədri seçildi.

Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilmiş 18-ci Zirvə Toplantısında mən vurğulamışdım ki, Azərbaycan sədrliyinin prioritetlərini və fəaliyyətini Bandunq prinsipləri əsasında quracaq, ədaləti və beynəlxalq hüququn normalarını qətiyyətlə müdafiə edəcəkdir. Azərbaycan tamamilə müstəqil daxili və xarici siyasət yürüdür, daxili işlərinə bütün müdaxilə cəhdlərini effektiv şəkildə neytrallaşdırır.

Dünya 2020-ci ilin əvvəlində COVID-19 pandemiyasına məruz qaldığı dövrdə Azərbaycan Hərəkatda sədrliyinə məsuliyyətlə yanaşmış və pandemiya nəticəsində yaranmış təhdidlərə vaxtında və adekvat cavab verilməsi üçün ciddi səylər göstərmişdir. Azərbaycan pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürüb. Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə Toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüş və onu təşkil etmişik. Zirvə Toplantısının praktiki nəticəsi olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin əsas humanitar və tibbi ehtiyaclarını əhatə edən məlumat bazası yaradılmışdır. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin mövcud ehtiyaclarının təmin edilməsi üçün həmin məlumat bazasından istinad mənbəyi kimi istifadə edir.

Bundan əlavə, Zirvə Toplantısındakı təklifimə əsasən, - bu təklif daha sonra 150-dən artıq ölkənin dəstəyini almışdır, - 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş, dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası təşkil olunmuşdur. Azərbaycan, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir ki, onun yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım idi. Bununla yanaşı, koronavirusa qarşı mübarizələrini dəstəkləmək üçün biz Qoşulmama Hərəkatının üzvləri daxil olmaqla, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Azərbaycan təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə etmişdir."

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan "peyvənd millətçiliyi"nə və peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınmasına qarşı narazılığını açıq şəkildə ifadə etməkdədir. Belə hərəkətlər Qoşulmama Hərəkatına üzv ölkələri öz əhalisini qorumaq imkanından məhrum edir. Peyvəndlərə çıxış sahəsində fərq çox böyükdür: "Beynəlxalq hesabatlara əsasən, dünyada mövcud olan peyvənd dozalarının 75 faizi 10 zəngin ölkə tərəfindən alındığı halda, aşağı gəlirli ölkələrdə isə peyvəndlənmə 2 faizdən azdır.

> Azərbaycan "peyvənd millətçiliyi"nə və peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınmasına qarşı narazılığını açıq şəkildə ifadə etməkdədir

Cari ilin mart ayında Azərbaycanın təşəbbüsü əsasında BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsinə dair qətnamə qəbul edilib. BMT Baş Assambleyasının cari sessiyası çərçivəsində də Azərbaycan eyni mövzuda qətnamə layihəsini irəli sürməyi planlaşdırır və biz sizin dəstəyinizə arxalanırıq.

Xanımlar və cənablar. Təəssüflər olsun ki, beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qərarları ilə bağlı ikili standartlar və selektiv yanaşmanın tətbiqi dünyada münaqişələrin ədalətli həllinə mənfi təsir göstərir. Azərbaycan da son 30 il ərzində belə selektiv yanaşmaya məruz qalıb.

Beynəlxalq münasibətlərdə tüğyan edən ikili standartlardan istifadə edən Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq təqribən 30 il ərzində Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlaya bildi. Həm öz ərazisində, həm də işğal etdiyi Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdi. 1992-ci ilin fevralında Xocalı soyqırımını törədərək yüzlərlə mülki şəxsi, o cümlədən 106 qadın və 63 uşağı qətlə yetirdi. Bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün doğma evlərinə qayıtmaq hüququ da daxil olmaqla, əsas insan hüquqlarını pozdu.

Lakin hərbi təcavüzə və 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasından imtina etməsinə baxmayaraq, Ermənistana qarşı sanksiyalar tətbiq edilmədi. Təcavüzkar dövlətlə işğala məruz qalan dövlət arasında fərq qoyulmadı. Əksinə, Ermənistan işğalı möhkəmləndirir, hərbi cinayətlər törədir, qanunsuz məskunlaşdırma və təbii sərvətlərimizin qeyri-qanuni istismarını həyata keçirir, Azərbaycan xalqının mədəni və dini irsini məhv edirdi.

Cəzasızlıqdan həvəslənən Ermənistan daha da irəliyə gedərək Azərbaycanı yeni torpaqlar uğrunda yeni müharibə ilə hədələyir, dövlət sərhədi və keçmiş təmas xətti boyu hərbi təxribatlara əl atırdı.

2020-ci il sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı genişmiqyaslı hərbi hücum törətdi. Buna cavab olaraq, Azərbaycan Ordusu öz ərazimizdə əks-hücum əməliyyatına başladı və işğal olunmuş torpaqlarımızı azad etdi.

44 günlük Vətən müharibəsi nəticəsində tamamilə məğlub edilmiş Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur oldu. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının yuxarıda qeyd etdiyim qətnamələrinin icrasını təmin etdi, 30 illik münaqişəyə son qoydu və hərbi-siyasi yollarla ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Dağlıq Qarabağ münaqişəsi keçmişdə qaldı.

Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin daim dəstəklənməsini yüksək qiymətləndirdiyimizi vurğulamaq istərdik. Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri olan Qoşulmama Hərəkatının yeddi ölkəsinin bizə verdiyi dəstək olduqca dəyərlidir. Onlar BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrinə istinadın edilmədiyi birtərəfli mətbuat açıqlamasının qəbul edilməsinə imkan vermədilər. Bununla da, həmin ölkələr Qoşulmama Hərəkatının sənədlərindən qaynaqlanan Hərəkatın prinsipial mövqeyinə möhkəm sadiqliyini nümayiş etdirdilər. İşğal dövründə Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qəsdən şəhər və kəndləri dağıtmış, bütün mədəni və dini abidələri məhv etmişdir. Ermənistanın məqsədi həmin ərazilərdə əsrlər boyu yaşamış Azərbaycan xalqının izini silmək idi.

Xanımlar və cənablar. Bu il Hərəkata üzv olan dövlətlər yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il - 2023-cü ilin sonuna qədər uzadılması barədə qərar vermişlər. Biz bunu Azərbaycanın Hərəkata uğurlu və səmərəli sədrliyinə verilən qiymətin əlaməti kimi yüksək dəyərləndiririk. Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində həmrəyliyin bundan sonra da möhkəmləndirilməsi və Hərəkatın siyasi çəkisinin və qlobal nüfuzunun artırılması istiqamətində fəaliyyətinə davam edəcək.

Biz COVID-19-dan sonrakı dövr üçün fikir mübadiləsinin aparılması və Hərəkatın mövqeyinin formalaşdırılması məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin yüksək səviyyəli iclasının keçirilməsini təklif etmişik.

BMT-nin COVID-19-dan sonra Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılması təklifinin Qoşulmama Hərəkatı tərəfindən təşviq edilməsi məqsədəuyğun olardı.

Azərbaycan Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentariləri arasında əməkdaşlığın inkişafı ilə bağlı addımlar atır. Bir həftə bundan əvvəl Azərbaycan sədr kimi Qoşulmama Hərəkatının Gənclər Şəbəkəsinin təsis iclasını keçirdi. Mən təklif edirəm ki, Qoşulmama Hərəkatına üzv dövlətlər artıq təsisatlanma ideyası üzərində düşünsünlər. Azərbaycan sədr qismində məsləhətləşmələr apararaq, Hərəkata üzv dövlətlərin bununla bağlı mövqeyini öyrənəcəkdir.

Sonda sizi əmin etmək istəyirəm ki, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan beynəlxalq münasibətlərdəki qlobal çağırışların həlli istiqamətində Hərəkatın rolunun daha da gücləndirilməsi, habelə ədalətin, beynəlxalq hüququn və Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi istiqamətində səylərini əsirgəməyəcəkdir."

# Böyük alim

## və qayğıkeş ana - AİDA İMANQULİYEVA



**Bir insan obrazı xarakterdə, elmi-ictimai fəaliyyətdə yaranır. Onun portret cizgiləri, məhz yaşadığı ömür yolunun onilliklərində cızılır. Bir ömrü elmə, ictimai işlərə həsr etmək neçə ömürlərə işıqlı yol açmaq, böyük xəzinə yaratmaqdır. O xəzinəni ki, paylaşdıqca tükənmir, əksinə daha da zənginləşir. Böyük şərqşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru Aida İmanquliyeva kimi. Bir ömür məhz elmə, onun inkişafına töhfə verməklə yaşanılıb.**





Tərcümeyi-halına qısa bir şəkildə nəzər salsaq görərik ki, Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Burada 132 saylı orta məktəbi qızıl medalla bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb şöbəsində təhsil almış, Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiranturanı bitirmişdir. Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, sonra baş elmi işçi, ərəb filologiyası şöbəsinin müdiri, elmi işlər üzrə direktor müavini, həmin institutda direktor vəzifəsində çalışmışdır.

Belə bir şərəfli elmi yolu keçən Aida xanımın "Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı" adlı ilk mətbu məqaləsi "Azərbaycan" jurnalında dərc olunmuşdur. O, Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən ruscaya çevirib "Vostoçnı almanax"da çap etdirmişdir. Müasir ərəb ədəbiyyatının aktual problemləri və rus-ərəb ədəbi əlaqələri haqqında məqalələri dövri mətbuatda - toplularda və elmi-kütləvi məcmuələrdə müntəzəm çap olunmuşdur.

Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin tərtibçisi və redaktoru olmuşdur. "Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi", "Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri", "Şərq filologiyası məsələləri", "Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə" kimi məqalələr məcmuələrinin redaksiya heyətinin üzvlərindən, müəlliflərindən və redaktorlarından biri olmuşdur. İctimai işlərdə fəal çalışmışdır.

### "AZƏRBAYCAN ELMİNİN, DÜŞÜNCƏLƏRİNİN, FƏLSƏFƏSİNİN İSLAM ALƏMİNDƏ YAYILMASINA NAİL OLMUŞDUR"

Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü və cəmiyyətin Azərbaycan bölməsi sədrinin müavini olmuşdur. Moskva, Bakı, Düşənbə, Hamburq şəhərlərində keçirilən Şərq problemlərinə həsr olunmuş beynəlxalq konfranslarda məruzələrlə çıxış etmişdir. O, aktiv bir vətəndaş-alim, elmi ictimaiyyətin hörmətini qazanmış nüfuzlu elm xadimi kimi elm tarixinə iz salmışdır. Aida xanım, eyni zamanda istedadlı və bacarıqlı bir elm təşkilatçısı idi. O, yalnız Azərbaycan ədəbiyyatşünaslığının deyil, ümumiyyətlə milli şərqşünaslıq elminin inkişafında əhəmiyyətli rol oynamışdı.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Aida xanım haqqında belə yazır: "Aida xanımın bütün elmi yaradıcılığı Azərbaycan ilə Şərq dünyası arasında əlaqələrin qurulub möhkəmlənməsinə yönəldilmişdir. Eyni zamanda, o, Azərbaycan elminin düşüncələrinin, fəlsəfəsinin, islam aləmində yayılmasına nail olmuşdur. Bu gün müstəqil Azərbaycanda, demək olar ki, Aida xanımın bütün arzuları artıq reallıqdır və respublikamızın müsəlman ölkələri islam dünyası ilə nəinki elmi, mədəni əlaqələr, həm də ən yüksək səviyyədə iqtisadi, siyasi əlaqələr qurubdur. Bütün bu sahələrdə Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir".

### NƏCİB, XEYİRXAH İNSAN, İCTİMAİ XADİM YETİŞDİRMƏK BÖYÜK ƏMƏK VƏ FƏDAKARLIQDIR

Bu gün onun əsl Ana obrazı bütün xırdalıqları ilə övladlarının simasında, əməllərində görünür. Zəngin irsə malik olan Aida xanım, eyni zamanda həm də ailəsinin, övladların qayğısına qalaraq böyük bir Ana obrazını yarada bilib. Cəmiyyət üçün, xalq üçün nəcib, xeyirxah insan, ictimai xadim yetişdirmək böyük əmək və fədakarlıqdır. Öz iş rejimini necə dəqiqliklə qura bilib ki, hər bir şeydə istəyinə nail olub. Gündəlik gərgin iş rejimində ailəyə diqqətini azaltmamışdır. O, hər şeydən əvvəl öz ailəsinin xanımı olmuş, gözəl qadın, qayğıkeş bir anaya çevrilmişdir. Aida xanımın ailəsi bütün Azərbaycan ailələri üçün nümunədir. Bu gün onun ruhu şaddır, ona görə ki, gözəl əməllərini onun layiqli, ləyaqətli övladları davam etdirirlər. Aida xanım qızları Mehriban Əliyeva və Nərgiz Paşayevanın təlim-tərbiyəsi ilə çox ciddi məşğul olmuş, onların mükəmməl təhsilə yiyələnmələrinə ciddi çalışmış və buna nail ola bilmişdir. Aida xanım ölkəmizin adını yüksəklərə qaldıran Mehriban xanım kimi övlad bəxş edib. İnsanlara qayğı, ehtiram, həssas münasibət. Əhalinin sosial həyatının dəyişdirilməsi, onun rifahının təmin edilməsi, aztəminatlı təbəqələrə kömək göstərilməsi sosial müdafiəyə ehtiyacı olan insanların maddi durumunun yaxşılaşdırılmasına istiqamətlənən layihələr Mehriban Əliyevanı xalqın sevimli Birinci Xanımına çevirib. Bu məhz şəcərədən gəlir. Ailə şəcərəsindən, ailənin təməlindən süzülüb gələn dəyərlərdir ki, sonrakı illərdə Mehriban xanım Əliyeva fəaliyyətində özünü göstərmişdir.

Azərbaycan dövlət idarəçiliyində ciddi rol oynayan, cəmiyyətin tərəqqisi naminə sosial layihələrin müəllif olan, yüksək mənəvi keyfiyyətləri ilə cəmiyyətdə xeyriyyəçi, şəfqətlik, mərhəmət simvoluna çevrilən Mehriban Əliyeva əməli fəaliyyəti ilə müasir tariximizdə özünəməxsus yerə və rola malikdir. Mehriban xanım Əliyeva bu gün vətənpərvər və xeyirxah ziyalı kimi mənsub olduğu nəslin gözəl ənənələrini yaşadaraq Azərbaycanın ictimai-siyasi həyatında xüsusi fəallıqla öz işini davam etdirir. Özünə və ətrafındakı insanlara ciddi tələbkarlıqla, yüksək meyarlarla yanaşma, hər bir işdə peşəkarlıq nümunəsi bu ailədən aşılanıb.

## Mehriban Əliyeva:

## "Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir"





### XEYRİYYƏÇİLİK VƏ HUMANİSTLİK NÜMUNƏSİ

Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən, eləcə də, Heydər Əliyev ideyalarını yaşadan və Onun adını daşıyan Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında həyata keçirilən davamlı tədbirlər bəhrəsini verir. Fondun prezidenti Mehriban Əliyeva humanitar missiyada həyata keçirdiyi layihələrlə bütün yaş həddində olan vətəndaşların qayğı və problemlərin təminatçısına çevrilib. Məlum olduğu kimi, ölkə ərazisində uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilib.

Azərbaycanın Birinci xanımı Mehriban xanım Əliyeva Azərbaycanda əhalinin sağlamlığının qoruyucusuna çevrilib. İnsanlara qayğı, ehtiram, həssas münasibət əsas meyarına çevrilib. Bu bir xeyriyyəçilik, humanistlikdir. İnsanların qəlbində bir ümid çırağı yandırılıb. Heydər Əliyev Fondunun genişmiqyaslı layihələri ilə ölkəmizdə uşaqlar üçün qastroenteroloji sanatoriya, psixo-nevroloji mərkəz istifadəyə verilmişdir. Beynəlxalq əməkdaşlıq çərçivəsində dünyanın tanınmış şirkətləri tərəfindən Fonda təqdim olunmuş hemodializ və endoskopik aparatlar hazırda müvafiq tibb müəssisələrində uğurla tətbiq olunur. Fondun təşəbbüsü ilə paytaxt və regionlarda mütəmadi olaraq qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqlar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir. İndiyə qədər 35 mindən çox insan yerli klinikalarda müalicə edilib, 8 minə yaxın xəstə respublikanın müxtəlif tibb müəssisələrində cərrahiyyə əməliyyatı olunub, onların bir qismi müayinə və əməliyyat üçün xarici ölkələrə göndərilib.

Səhiyyə yönümlü layihələr sırasında Heydər Əliyev Fondunun fəaliyyətində uşaqlar arasında mövcud olan talassemiya xəstəliyinin qarşısının alınması üçün preventiv tədbirlər, maarifləndirmə işlərinin aparılması, qan testlərinin keçirilməsi, xəstəliyin müalicəsi, sümük iliyinin köçürülməsi ilə bağlı məsələlər də yer alır. Paytaxtımızda inşa olan Talasamiya Mərkəzi Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib. Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən və bu gün həmin xəstəliyə düçar olanların ümid yerinə çevrilən mərkəz Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunub. Burada quraşdırılan avadanlıqlar müalicənin ən yüksək səviyyədə aparılmasına şərait yaradır. Səhiyyə sahəsində görülən işlər, həyata keçirilən layihələr Heydər Əliyev Fondunun əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrdir. Bu qayğı humanizmin ən nümunəvi göstəricisidir.

### "İŞĞALDAN AZAD OLUNMUŞ TORPAQLARIMIZDAKI HAZIRKI MƏNZƏRƏNİ HƏR BİRİMİZ ÜRƏK AĞRISI İLƏ SEYR EDİRİK"

Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Odur ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə yeni layihəyə başlayıb. Fondun prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsindəki paylaşımında bildirmişdi ki, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik: "Ermənı təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır".

Mehriban Əliyeva qeyd etmişdir ki, layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

Fəaliyyəti dövründə həyata keçirdiyi bu və ya digər layihələr Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verir. Mayın 12-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa "Xarıbülbül" musiqi festivalına ev sahibliyi etdi. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə yenidən Şuşada Cıdır düzündə təşkil olunan "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunmuşdu. Bu gün işğaldan azad olunan dini-mədəniyyət abidələrinin bərpasına öz töhfəsini verir. Hər dəfə Cənab Prezident ilə işğaldan azad olunan ərazilərimizə səfəri və öz təssüratlarını ifadə etməsi vətənpərvərlik duyğularının təcəssümüdür.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Azərbaycanın yenidən dövlət müstəqilliyini əldə etməsi xalqımızın həyatında mühüm tarixi hadisə oldu

## YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının yap.org.az-a müsahibə



*- Mübariz müəllim, 44 günlük Vətən müharibəsinin başlamasından bir il ötür. Bu müharibədə Azərbaycanın möhtəşəm qələbə qazanması ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı.*

- Vətən müharibəsində qələbənin əldə edilməsinin əsasında ciddi siyasi-iqtisadi, hərbi və mənəvi-psixoloji səbəblər dayanır ki, onların da formalaşması və həlledici şərtlər kimi çıxış etməsi müxtəlif mərhələlərdən keçmişdir. Bildiyiniz kimi, Azərbaycanın yenidən dövlət müstəqilliyini əldə etməsi xalqımızın həyatında mühüm tarixi hadisə oldu. Həmin dövrdə xalqımızın milli maraqlarını ifadə edən dövlət siyasətinin aparılması vacib idi. Lakin, keçmiş iqtidarların dövləti idarəetmə səriştəsinin olmaması nəticəsində Azərbaycan ağır sosial-iqtisadi və siyasi böhranla üzləşdi, cəmiyyətdə hərc-mərcliyin baş alıb getməsi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına şərait yaratdı. Ziddiyyətli xarakter daşıyan xarici siyasətin nəticəsində Azərbaycan beynəlxalq aləmdə təkləndi, dünya birliyində onun haqqında qeyri-ciddi dövlət obrazı formalaşdı.

Azərbaycanı üzləşdiyi böhrandan Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xilas etdi. Heydər Əliyev ictimai-siyasi sabitliyin yaradılması və sosial-iqtisadi böhranın aradan qaldırılması üçün müdrik siyasət həyata keçirməyə başladı. Demokratik siyasi sistem və bazar iqtisadiyyatı münasibətləri inkişaf etdi. Cəmiyyətin bütün sahələrinin inkişafını nəzərdə tutan məqsədyönlü siyasətin nəticəsində Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyi təmin edildi, onun dünya birliyində mövqeyi gücləndi. Müstəqil dövlət quruculuğunun tərkib hissələrindən biri kimi vahid komandanlığa əsaslanan, ölkənin təhlükəsizliyini təmin edə biləcək Silahlı Qüvvələr yaradıldı. Heydər Əliyev Azərbaycanın xarici siyasətini beynəlxalq hüquqi normalar, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərinə müdaxilə edilməməsi kimi prinsiplər əsasında qurdu. Xarici siyasət aparılarkən Azərbaycanın geosiyasi vəziyyəti, onun dünya ölkələri ilə ayrı-ayrılıqda və çoxtərəfli formatda münasibətlərinin xüsusiyyətləri nəzərə alındı. Regional və beynəlxalq təşkilatlarla əlaqələr yaradıldı və xalqımızın mənafeyi naminə onların imkanlarından istifadə olunmağa başlanıldı. Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, Müstəqil Dövlətlər Birliyi, GUAM, İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO və digər nüfuzlu qurumlarla Azərbaycanın əlaqələri möhkəmləndi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq Heydər Əliyevin apardığı xarici siyasətin əsas istiqamətlərindən birini təşkil etmişdir. Ümummilli Lider BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etməsinə nail olmuş, münaqişə ilə bağlı Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və digər təşkilatların tribunalarından səsləndirmiş, beynəlxalq birliyi problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırmışdır. Bütün bunlara baxmayaraq, beynəlxalq təşkilatların qərarları sadəcə olaraq ədalətin öz əksini tapdığı, lakin icra edilməyən sənəd parçası olaraq qalırdı. Lakin səbir, iradə və qətiyyət bu münaqişənin həllində əhəmiyyətli rol oynadı. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu şanlı qələbə əldə etdi.

*- Vətən müharibəsində Azərbaycanın qələbəsini şərtləndirən əsas səbəblər içərisində Prezident İlham Əliyevin liderlik və hərbi sərkərdəlik keyfiyyətlərini, onların mahiyyətini necə xarakterizə edərdiniz?*

- Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış şanlı qələbə "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini bir daha sübut etdi. Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik fəaliyyətini təhlil etdikdə onun güclü siyasi iradəyə və idarəetmə bacarığına malik, xalqına və dövlətinə bağlı müdrik lider olduğunu görürük. Bunun nəticəsidir ki, Azərbaycan davamlı inkişaf və modernləşmə yolu ilə irəliləyən, dünya siyasətində öz yeri və rolu olan dövlət kimi tanınır, xarici ölkələr ona hörmət və ehtiramla yanaşırlar. Prezident İlham Əliyev bütün fəaliyyətini Azərbaycanın inkişafına və möhkəmlənməsinə həsr edən Lider kimi xalqımızın böyük rəğbətini qazanıb.

Prezident İlham Əliyevin dünyada gedən geosiyasi və geoiqtisadi proseslərə müdrik liderə məxsus böyük uzaqgörənliklə yanaşması apardığı siyasətin əsas cəhətlərindən biridir. Azərbaycan Prezidenti təcrübəli siyasətçi kimi ümummilli və qlobal məsələləri böyük peşəkarlıqla həll edir, hadisə və proseslərin axarını əvvəlcədən müəyyənləşdirərək gələcəyin tarixini yaradır, parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri və mürəkkəb situasiyalarda düzgün seçim etməsi ilə dünyanın tanınmış dövlət xadimləri içərisində xüsusi yer tutur. Prezident İlham Əliyev xalqımızın həyatında böyük dəyişikliklər yaradan tarixi vəzifələrin həyata keçirilməsi yükünü və məsuliyyətini daşıyaraq milli maraqları ifadə edən siyasət həyata keçirir. Azərbaycan Prezidenti sübut edir ki, liderin malik olduğu nüfuz özündə şəxsi keyfiyyətlərin, siyasi dəyərlərin və prinsiplərin vəhdətini birləşdirir. Dövlət başçısının xalqın qəhrəmanı, hərbi sərkərdəsi olması onun intellektual potensialından və səriştəli idarəetmə bacarığından irəli gəlir. Vaxtilə müharibə şəraitində yaşayan ölkəmizin bütün sahələrindəki davamlı inkişaf Prezident İlham Əliyevin qarşısına qoyduğu məqsədləri uğurla yerinə yetirdiyini göstərir. Vətən müharibəsində xalqımız Prezident İlham Əliyevin müzəffər komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin bir daha şahidi oldu.

*- Müharibədə qələbəni təmin edən sosial-iqtisadi amillərin rolu, xüsusilə ordu quruculuğu sahəsində görülmüş işlərin əhəmiyyəti barədə fikirləriniz...*

- Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi nailiyyətlər Vətən müharibəsində qələbənin qazanılmasında mühüm rol oynamışdır. Azərbaycan müharibədə sosial-iqtisadi baxımdan inkişaf etmiş güclü dövlət kimi iştirak etdi. Müharibəyəqədərki dövrdə və hazırda ölkəmizin maddi-mənəvi resursları səmərəli şəkildə dövlətin inkişaf strategiyasının həyata keçirilməsinə cəlb olunmuşdur. Azərbaycan böyük enerji-nəqliyyat layihələrinin əsas təşəbbüskarlarından biri kimi regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində vacib rol oynayır. Prezident İlham Əliyev ölkəmizin enerji resurslarının dünya bazarlarına səmərəli və əlverişli yollarla nəqli istiqamətində praqmatik siyasət həyata keçirir və şaxələndirilmiş nəqliyyat infrastrukturu vasitəsilə beynəlxalq birliyin diqqətini Azərbaycana cəlb edir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirərək, Azərbaycanın karbohidrogen ehtiyatlarından əldə olunan gəlirləri ölkəmizin inkişafına yönəldir. Azərbaycanla dünya dövlətləri arasında ticarət-iqtisadi əlaqələr möhkəmlənir. Prezident İlham Əliyevə dərin inam və etibardan irəli gələrək, ölkəmizin iqtisadiyyatına böyük həcmdə xarici sərmayələrin qoyulması qeyri-neft sektorunun və müxtəlif sənaye sahələrinin inkişafına böyük təsir göstərir. Azərbaycan bir çox postsovet dövlətləri ilə müqayisədə ümumi iqtisadi gücünə, milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət parametrlərinə görə qabaqcıl yerlərdən birini tutur. Bütün bu uğurlar özünün parlaq ifadəsini Vətən müharibəsində sübut etdi.

Eyni zamanda, ordu quruculuğundakı nailiyyətlər Vətən müharibəsində qələbənin əldə olunmasında mühüm rol oynamışdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ordu quruculuğunun yeni mərhələsi, hərbi hissələrin müasir standartlara uyğun qurulması, ordumuzun müasir silahlarla təminatı sahəsində görülmüş işlər xüsusilə vurğulanmalıdır. Vətən müharibəsi güclü maddi-texniki bazaya və yüksək hərbi hazırlığa, vətənpərvərlik əhval-ruhiyyəsinə malik Azərbaycan Ordusunun qüdrətini bütün dünyaya nümayiş etdirdi. Hələ müharibə başlamamışdan əvvəl dünyanın nüfuzlu "Global Firepower Index" (Hərbi Gücün Qlobal İndeksi) təşkilatının məlumatında bildirilirdi ki, 2020-ci il üzrə "Ən güclü ordu" reytinqinə görə Azərbaycan Ordusu dünyanın 138 dövlətinin orduları sırasında 64-cü yerdədir. Siyahıda Gürcüstan 89-cu, Ermənistan isə 111-ci sıradadır. Azərbaycan Ordusu yalnız Cənubi Qafqazda deyil, həmçinin MDB məkanında lider mövqelərdən birini tutur. Bütün bunların nəticəsidir ki, Azərbaycan Ordusu işğal olunmuş ərazilərmizi erməni qəsbkarlarından yüksək hərbi peşəkarlıqla azad etdi.

*- Azərbaycanın apardığı xarici siyasətin və diplomatik mübarizənin Vətən müharibəsində qələbənin əldə edilməsində rolunu necə şərh edərdiniz?*

- Vətən müharibəsində qələbə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət və Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı ardıcıl, qətiyyətli diplomatik mübarizə ilə sıx şəkildə bağlıdır. Ötən illər ərzində xalqımızın milli maraqlarının təmin olunması sahəsində Prezident İlham Əliyevin apardığı xarici siyasət həm də Azərbaycana beynəlxalq aləmdə çoxlu dost dövlətlər və etibarlı tərəfdaşlar qazandırıb. Cənubi Qafqazın aparıcı dövləti kimi ölkəmizin dünya birliyində mövqeyi möhkəmlənib. Digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq Prezident İlham Əliyevin siyasətinin əsas prinsiplərindən birini təşkil edir. Bu siyasətin nəticəsində ölkəmizlə dünya dövlətləri arasında qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq möhkəmlənir, Azərbaycan vətəndaşlarının firavan və təhlükəsiz şəraitdə yaşayışı təmin olunur.

Prezident İlham Əliyevin apardığı xarici siyasət Azərbaycanı dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun BMT, Avropa İttifaqı, ATƏT, MDB, İƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarla əlaqələrini möhkəmləndirir. 2011-ci il oktyabrın 24-də 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi xalqımızın tarixində mühüm hadisədir. Bununla yanaşı, nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etməsi Azərbaycanın uğurlu diplomatiyasının nəticəsidir. Xarici siyasət sayəsində əldə olunmuş nailiyyətlər ölkəmizin müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişafına mühüm təsir göstərir. Müasir dövrdə beynəlxalq aləmdə baş verən geosiyasi ziddiyyətlərə baxmayaraq, Azərbaycan davamlı inkişaf yolu ilə irəliləyən dövlət kimi dünya ölkələri arasında özünə layiqli yer tutur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün ötən illər ərzində dövlətimiz fəal və çevik xarici siyasət həyata keçirib. Dağlıq Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə müfəssəl və dolğun məlumatlar çatdırılıb, Ermənistanın yalançı təbliğatı ildən-ilə fiaskoya uğrayıb. Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi normalar çərçivəsində nizamlanmasına çalışıb, Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi kimi beynəlxalq və regional təşkilatların tribunalarından səsləndirib, Ermənistanı işğalçılıq siyasətindən əl çəkməyə, dünya dövlətlərini isə problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırıb. Ermənistanın beynəlxalq hüquqi normalara saymazyana münasibəti və Azərbaycanın haqlı tələblərinə göz yumması uzun müddət davam edə bilməzdi. Vətən müharibəsi başlayarkən dünya ictimaiyyəti Ermənistanın hərbi təcavüzkarlığı və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini bilərəkdən yerinə yetirməkdən boyun qaçırması ilə bağlı ilə bağlı kifayət qədər məlumatlara malik idi.

*- Vətən müharibəsində qələbəni təmin edən mühüm amillərdən biri də ölkəmizdəki vətəndaş həmrəyliyi və milli birlikdir. Bununla bağlı fikirləriniz maraqlı olardı....*

- Müharibə dövründə xalqımız Prezident İlham Əliyevin apardığı siyasətlə bağlı həmrəylik nümayiş etdirdi. Bir daha aydın oldu ki, Azərbaycan dövlətinin bütün sahələrində uğurların əldə edilməsində vətəndaş həmrəyliyi və milli birlik özünəməxsus yer tutur. Milli birliyin təmin olunması, müxtəlif ictimai-siyasi qüvvələr arasında etimad mühitinin yaradılması istiqamətində Prezident İlham Əliyevin atdığı addımlar ictimai fikirdə onun haqqında uzaqgörən və ədalətli lider obrazını daha da möhkəmləndirir.

Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, Azərbaycan dünyada müxtəlif sivilizasiyaların qovuşduğu tolerant məkan, multikultural dəyərlərin inkişaf etdiyi çoxmillətli ölkə kimi tanınır. Ölkəmizdə müxtəlif dinlər və mədəniyyətlər arasında qarşılı etimad mühiti mövcuddur. Milli və dini münasibətlərin inkişafı sahəsində Prezident İlham Əliyevin apardığı siyasət etnik və dini mənsubiyyəti, mədəni dəyərləri və adət-ənənələrindən asılı olmayaraq ölkə vətəndaşları tərəfindən dəstəklənir. Müxtəlif dini konfessiyaların fəaliyyəti üçün yaradılmış şərait cəmiyyətin mənəvi sərvətləri sırasında vicdan və dini etiqad azadlığının özünə mühüm yer tutmasını təmin edir. Prezident İlham Əliyevin ölkəmizdəki ictimai-siyasi qüvvələr, dini konfessiyalar və müxtəlif millətlər, etnik qruplar arasında həmrəyliyin möhkəmləndirilməsi istiqamətində apardığı siyasətin əhəmiyyəti Vətən müharibəsində bir daha sübut edildi. Müharibə dövründə Vətənini sevən hər bir azərbaycanlı siyasi, dini və etnik mənsubiyyətindən asılı olmayaraq Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşib vətəndaş həmrəyliyi və milli birlik nümayiş etdirdilər.

***- Azərbaycanın işğaldan azad olunmuş ərazilərində geniş quruculuq-bərpa işləri aparılır. Bunun tərkib hissəsi kimi dini ibadət yerlərinin təmiri və tikintisinə xüsusi diqqət yetirilir. Siz bu barədə nə söyləmək istərdiniz?***

- Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistanın törətdiyi dağıntıların miqyası onu görənləri dəhşətə gətirir. Bunu həmin ərazilərə səfər edən ölkəmizdəki diplomatik korpusun, eyni zamanda beynəlxalq təşkilatların və KİV-in nümayəndələri də dəfələrlə etiraf edirlər. Erməni tapdağından təmizlənən şəhər və rayonlarımızın çoxunda düşmən bir dənə də olsun salamat tikili saxlamayıb. Prezident İlham Əliyevin öz çıxışlarında Azərbaycanın işğaldan azad olunmuş ərazilərində yaşayış məntəqələrinin və xalqımıza məxsus maddi-mədəniyyət abidələrinin Ermənistan tərəfindən yerlə-yeksan edildiyini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırması böyük əhəmiyyət daşıyır. Məlum olduğu kimi, Ermənistanın işğalından azad olunmuş ərazilərdəki xalqımıza məxsus çoxəsrlik qədim tarixi-dini abidələr də dağıdılıb və yaxud onların bir qismi saxtalaşdırılaraq erməniləşdirilib. Təcavüzkar dövlətin bu cür vandal əməllərə əl atmaqda əsas məqsədi Azərbaycan xalqının minilliklər ərzində yaşadığı ərazilərdə onun tarixi keçmişini və mənəvi yaddaşını məhv etmək idi. Torpaqlarımızın işğaldan azad olunmasından sonra ortaya çıxan mənzərə erməni millətçiliyinin insanlıq əleyhinə olduğunu bir daha göstərdi. Ermənilər tərəfindən müsəlman dini kimliyinə aid olan abidələr, o cümlədən digər mədəniyyət nümunələri, məzarlar və qəbirstanlıqlar dağıdılmaqla yanaşı, həm də təhqir olunub. Məscidlərdə mal-qara və digər heyvanların saxlanılması faktı erməni millətçiliyinin barbarlığını göstərir. Ermənistandan fərqli olaraq, Azərbaycanda müxtəlif dinlərə məxsus olan abidələrə dövlət səviyyəsində diqqət və qayğı göz qabağındadır. Təkcə bir fakt - Bakının mərkəzindəki erməni kilsəsinin dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilməsi ölkəmizdə dini müxtəlifliyin qorunduğunun sübutudur.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Heydər Əliyev Fondunun xalqımıza məxsus mədəni-dini irsin yenidən dirçəldilməsi istiqamətindəki fəaliyyəti xüsusi qeyd olunmalıdır. 30 illik işğaldan sonra azad olunan ərazilərdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xalqımıza məxsus tarixi-dini abidələrin bərpası işlərinə başlanılıb. Prezident İlham Əliyev tərəfindən Şuşada yeni məscidin təməlinin qoyulması, Yuxarı Gövhər Ağa məscidinin təmir olunması, Zəngilanda erməni vandallığına məruz qalan məscidin, eləcə də Ağdamda "Qiyaslı" məscidinin yenidən qurulması işlərinə başlanılması, "Qazançı" kilsəsində bərpa işlərinin aparılması və s. Azərbaycan dövlətinin milli-mənəvi, tolerant dəyərləri yüksək qiymətləndirdiyini göstərir. Bu il oktyabrın 3-də Prezident İlham Əliyevin Tərtər rayonunun Talış kəndinə səfəri zamanı orada ermənilərin dağıtdığı alban-udi və rus-pravoslav kilsələrində olması, hər iki ibadətgahda təmir və bərpa işlərinin aparılacağını bildirməsi Azərbaycan dövlətinin bütün dinlərə hörmətlə yanaşdığını ifadə edir.

***- Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, qələbəmizdə mənəvi hazırlıq həlledici rol oynamışdır. Yüksək vətənpərvərlik ruhunda gənc nəsil yetişdi və torpaqlarımızı işğaldan azad etdi...***

- Azərbaycanda gənc nəslin hərtərəfli inkişafının təmin edilməsi dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir. Bu siyasətin əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların intellektual potensialından səmərəli istifadə etmək, sosial-iqtisadi məsələlərinin həllinə və s. dəstək verməkdən ibarətdir. Gənclər siyasətinin əsas vəzifələrini gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsiplərinə söykənməklə, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması və s. təşkil edir.

Prezident İlham Əliyevin siyasətində gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması məsələsi xüsusi yer tutur. Azərbaycan gənclərinin inkişafı ilə bağlı Dövlət proqramlarının uğurla həyata keçirilməsi gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Qeyd edək ki, gənclərin inkişafına dövlət səviyyəsində diqqət və qayğının nəticəsi özünü Vətən müharibəsində bir daha göstərdi. Azərbaycan gənclərinin müharibə başlayarkən könüllü və kütləvi şəkildə hərbi çağırış məntəqələrinə müraciət edərək, döyüşlərdə iştirak etmək istəkləri yüksək vətənpərvərlik əhval-ruhiyyəsinin ifadəsi idi. Vətən müharibəsində şanlı qələbənin əldə edilməsində Azərbaycan gənclərinin şücaət və qəhrəmanlığının böyük rolu olmuşdur.

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan igidlərimiz əsasən gənclərdən ibarətdir. Onlar Vətənimizi, xalqımızı, onun qürurunu, bayrağını ucaltdılar və ən ali məqama yüksəldilər. Xalqımıza Zəfər sevincini yaşadan Azərbaycan Silahlı Qüvvələrinin zabit-əsgər heyətinə, müharibədə sağlamlığını itirən cəsur qazilərimizə, şəhidlərimizə və onların yadigarlarına ömür boyu minnətdar və borcluyuq. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən şəhid ailələrinə, qazilərimizə göstərilən qayğı hər birimiz üçün örnək olmalıdır. Xüsusilə, 27 sentyabr - Anım Günündə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə həyata keçirilən yürüşü xatırlatmaq istərdim. Dərin məna daşıyan bu aksiya ölkə rəhbərliyi səviyyəsində Azərbaycan xalqının öz şəhidlərinin əziz xatirəsinə verdiyi yüksək dəyərin nümunəsi idi.

Şəhidlərimizin əziz xatirəsi Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - Heydər məscidi, Təzəpir məscidi, "Jen Mironosits" pravoslav kafedral kilsəsi, Bakının Avropa Aşkenazi Yəhudi Sinaqoqu, Ağdam Cümə məscidi, Kəlbəcərdəki Xudavəng məbədi, Laçındakı Ağoğlan məbədi, Şuşadakı Yuxarı Gövhər Ağa məscidi və digər məscidlərdə, kilsələrdə, sinaqoqlarda da dərin ehtiramla yad edilmişdir. Dini ibadət yerlərində Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunub, dini ayinlər icra olunub, həmçinin ölkəmizdə və bütövlükdə dünyada əbədi sülhün bərqərar olması üçün dualar edilib. Qeyd edim ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu şəhid ailələri ilə bağlı bir çox layihələr həyata keçirir. Fondun xətti ilə şəhidlərin doğum günlərində və bayramlarda onların ailələrinin ziyarət edilməsi, "Şəhid yadigarları", "Biz Zəfərin övladıyıq" kimi tədbirlərin həyata keçirilməsi mütəmadi xarakter daşıyır.

Qarabağda erməni vandallar tərəfindən dağıdılan dini abidələr haqqında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə çəkilmiş videoçarx və sənədli filmlər televiziya kanallarında, sosial mediada nümayiş etdirilir. Komitənin təşəbbüsü ilə Vətən müharibəsi haqqında kitablar nəşr edilir, o cümlədən xarici mətbuatda müsahibə və məqalələr dərc olunur. Dövlət Komitəsi milli-mənəvi dəyərlərin təbliği, xüsusilə gənclərin vətənpərvərlik və həmrəylik ruhunda tərbiyə olunması məqsədilə KİV, eləcə də sosial media vasitəsilə maarifləndirmə işi aparır.

***- Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin tarixi-siyasi əhəmiyyəti nədən ibarətdir?***

- Vətən müharibəsində Azərbaycan Ordusu Ermənistanın hərbi qüvvələrini darmadağın etməklə həm də onun işğalçılıq siyasətini iflasa uğratdı. Prezident İlham Əliyevə olan yüksək inamın nəticəsi idi ki, xalqımızın vətənpərvər övladları onun çağırışına qoşularaq torpaqlarımızın işğaldan azad edilməsi uğrunda səfərbər olub silaha sarıldılar. Rəşadətli Azərbaycan Ordusu "Dəmir yumruq" əməliyyatında böyük şücaət göstərərək xalqımızın tarixinə parlaq səhifələr yazdı. Vətən müharibəsinin ilk günlərindən başlayaraq Ali Baş Komandan İlham Əliyev əsgərlərimizin qəhrəmanlığı ilə fəxr etdiyini və qürur duyduğunu bildirdi.

Azərbaycan dövləti erməni işğalçılarını torpaqlarımızdan qovmaqla bölgədə yeni reallıq yaratdı və 27 il idi ki, BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan məlum dörd qətnaməsinin tələblərini yerinə yetirdi. Vətən müharibəsində möhtəşəm qələbə Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti və Azərbaycan Ordusunun igid, mərd, qorxubilməz döyüşçülərinin qəhrəmanlığı nəticəsində reallaşdı. Müharibənin gedişində hərbçilərimizin yüksək əhval-ruhiyyəsinin və mənəvi-psixoloji hazırlığının, döyüş tapşırıqlarını böyük məharətlə yerinə yetirdiklərinin şahidi olduq.

2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən birgə Bəyanatın imzalanması Vətən müharibəsində Azərbaycanın hərbi-siyasi qələbəsini təsdiq edən tarixi hadisə oldu. Bununla da müharibənin ilk günlərindən etibarən Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri Ermənistan hakimiyyətinin qəbul etməkdən başqa çıxış yolu qalmadı. Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunmuş Zəfər paradı Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya göstərdi. İşğal olunmuş torpaqlarda dalğalanan Qələbə bayrağımız da bu möhtəşəm tədbirə gətirildi, 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş etdirildi. Həmçinin, paradda Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi, düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də göstərildi. Ali Baş Komandan İlham Əliyevin müdrikliyi, Azərbaycan Ordusunun gücü, cəmiyyətdəki vətəndaş həmrəyliyi nəticəsində əldə olunmuş qələbə Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrindən biridir. Xalqımız bu tarixi Zəfəri böyük səbirsizliklə gözləyirdi və hər birimiz üçün müqəddəs sayılan torpaqlarımızın azad olunması sübut etdi ki, Azərbaycan əsgəri Vətənini qorumaq uğrunda canından keçməyə hazırdır.

Müsahibəmin sonunda fürsətdən istifadə edərək, müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın azad edilməsində qəhrəmancasına, rəşadətlə iştirak etmiş hərbi qulluqçuları, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini və xalqımızı qarşıdan gələn Zəfər Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm. Bizlərə bu qürurlu günləri yaşatmaq üçün canından keçən Vətən övladlarının ailələrinə səbir diləyir, qazilərimizə cansağlığı arzulayıram.

- Müsahibəyə görə sağ olun.

## Ukraynalı videobloger:
## "İndi Cıdır düzündə Azərbaycanın Dövlət Bayrağı dalğalanır"



**Ukraynanın "Pryamiy" telekanalının "Həftə" ("The Week") verilişində 44 günlük Vətən müharibəsinin ildönümü ərəfəsində Azərbaycanın işğaldan azad olunmuş ərazilərindən, o cümlədən Ağdam, Füzuli və Şuşadan xüsusi reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, verilişdə ukraynalı videobloger Taras Berezovets və Ukrayna Milli Strateji Araşdırmalar İnstitutunun eksperti Nikolay Zamikula Azərbaycanda, xüsusilə işğaldan azad olunmuş ərazilərdə gördükləri barədə ətraflı danışıblar.**

Taras Berezovets İkinci Qarabağ müharibəsinin başlamasının ildönümü günündə Şuşada olduğunu deyərək bildirib ki, bu şəhərdə Azərbaycanın xüsusi təyinatlılarının paradı keçirilib. Reportajda həmin paraddan görüntülər təqdim edilib.

"Xüsusi təyinatlılar Azərbaycanın strateji ərazisi olan Şuşanı işğaldan azad etməyi bacarıblar. Mən Şuşanın Cıdır düzündəyəm. İndi burada Azərbaycanın Dövlət Bayrağı dalğalanır", - deyə Taras Berezovets Şuşadan hazırladığı reportaj yayımlanarkən söyləyib.

Sonra videobloger Ağdamdan hazırladığı reportaj haqqında məlumat verib. Vurğulayıb ki, ermənilər orada bütün obyektləri, o cümlədən məscidləri dağıdıblar. Azərbaycanın işğaldan azad etdiyi ərazilər ermənilər tərəfindən tamamilə minalanıb, hazırda minatəmizləmə işləri aparılır. O, Ağdamın yenidən qurulması, Füzuli aeroportunun tikilməsi barədə də təəssüratlarını bölüşüb.

Taras Berezovets, həmçinin qeyd edib ki, Azərbaycandan fərqli olaraq, Ermənistan Ukraynanın ərazi bütövlüyünə qarşı çıxır, Krım məsələsində Ukraynanı dəstəkləmir. Öz növbəsində Nikolay Zamikula bildirib ki, Azərbaycan illərdir həyata keçirdiyi kompleks tədbirlər nəticəsində İkinci Qarabağ müharibəsində Qələbə qazanıb.

"Azərbaycanda 10 milyon, Ermənistanda isə 3 milyon əhali yaşayır, Azərbaycanın iqtisadi potensialı, enerji və maliyyə resursları, hərbi sənayenin gücləndirilməsi, səmərəli idarəçilik sistemi, Ordunun müasirləşdirilməsi, xalqın mənəvi hazırlığı Qələbənin əldə olunmasının başlıca səbəblərindəndir. Birinci Qarabağ müharibəsində Azərbaycanın ordusu demək olar yox idi. Ötən illər ərzində Azərbaycan Ordusu regionun ən güclü ordusuna çevrilib", - deyə Nikolay Zamikula əlavə edib. O, həmçinin Azərbaycan ilə Ukrayna arasında strateji tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayaraq, hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb.

# Ermənistanın müharibə cinayətləri: Gəncə terroru



© Trend News Agency

## Prezident İlham Əliyev:
## "Hədəf məhz Gəncə şəhərinin əsas prospektində mülki əhalini məhv etmək idi"

"Müharibə dövründə kimin kim olduğunu, kimin vicdanlı döyüş apardığını və kimin yatmış şəhərlərə alçaqcasına hücum etdiyini hamı gördü. Özü də ən maraqlısı budur ki, gecə vaxtı Gəncənin yaşayış məhəlləsinə, yatan insanlara və uşaqlara operativ-taktiki raket zərbələri endiriləndən sonra Ermənistan rəhbərliyi bəyan etdi ki, onların bu məsələyə heç bir aidiyyəti yoxdur. Bilirsiniz, bu, ifrat həyasızlıqdır. Bəs kim edib? Biz özümüz vurmuşuq?" Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın nüfuzlu "Nasionalnaya oborona" jurnalına müsahibə verərkən bildirib. Bu, ermənilərin növbəti təxribatı idi. Gəncə terroru bir daha erməni xislətini ortaya qoymuş oldu. İllər, qərinələr keçsə də belə ermənilərin faşist ideologiyası tarixin dönəmlərində özünü göstərmiş və son dövrdə də bunun acı nəticəsini yaşamış olduq. 2020-ci ilin oktyabr ayında cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncə şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən bir neçə dəfə ayrı-ayrı zamanlarda bombalanması erməni vəhşiliyinin bir nümunəsi olaraq dünya ictimaiyyətinin gözü qarşısında baş verdi. Gəncəyə ilk hücum 4 oktyabrda baş verdi və 1 mülki şəxs Əliyev Tunar Qoşqar oğlu şəhid oldu, 30-dan çox mülki şəxs yaralandı. Bu raket hücumu müharibənin getdiyi ərazidən kənarda edilən ilk ciddi hücum idi. Qeyd edək ki, birinci dəfə OTR-21 TOÇKA ballistik raketindən Gəncə şəhəri vuruldu. Daha sonra Gəncə bir daha raket hücumuna 5 oktyabrda məruz qaldı. Hücum nəticəsində 3 mülki şəxs yaralandı. Üçüncü raket hücumunda həlak olan və yaralanan olmadı. Düşmənin silahlı qüvvələrinin 11 oktyabr tarixində gecə saat 02 radələrində Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binasını raket atəşinə tutması nəticəsində 5 nəfər həlak oldu, 28 nəfər yaralandı. Çoxsaylı mülki infrastruktur obyektlərə külli miqdarda ziyan dəydi. Ermənistan silahlı qüvvələri "Toçka-U" raket sistemindən istifadə edərək, Gəncədə insanların sıx yaşadığı məntəqəni atəşə tutdu. Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, habelə 10 oktyabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən, elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almışdır.

### "BU, DÜNYADA ANALOQU OLMAYAN HƏYASIZLIQDIR"

Ermənistanın mülki şəxslərə raket hücumlarından həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da vardır. "İllər boyu deyirdilər ki, azərbaycanlılar erməniləri ittiham etmək üçün Xocalıda soyqırımını özləri təşkil ediblər", - deyə bildirən Cənab Prezident bunun dünyada analoqu olmayan həyasızlıq olduğunu bildirib: "Hərçənd, bu tipli raketlər barədə az-çox anlayışı olan bütün insanlara məlumdur ki, tapşırıq verilir, hədəf seçilir və raket düz həmin hədəfə doğru gedir. Yəni, hədəf məhz Gəncə şəhərinin əsas prospektində mülki əhalini məhv etmək idi. Onların siyasətinin və deyərdim ki, mənliyinin göstəricisi budur. Onlar döyüş meydanında məğlubiyyətin acığını çıxmağa və ya bizdən qısas almağa çalışırdılar. Bu, birincisi. İkincisi, onlar düşünürdülər ki, bizi dayandıracaqlar. Onlar fikirləşirdilər ki, zərər çəkmiş insanlar öz ölkəsinin hakimiyyətindən hərbi əməliyyatların dayandırılmasını tələb edəcəklər, onların niyyəti belə idi. Lakin onlar yanılırdı. Onlar ordunun döyüş qabiliyyəti və Azərbaycan xalqının mənəvi ruhu baxımından bizi lazımınca qiymətləndirmirdilər. Yaxınlarını itirmiş, özləri uçqunların altından güclə çıxmış insanlar deyirdilər ki, yalnız irəli gedin. Mən çoxlu sayda müraciətlər, məktublar alırdım, yazırdılar ki, biz ölməyə hazırıq, lakin öz torpaqlarımızı qaytarmalıyıq. Ermənilərin bu niyyəti də baş tutmadı".

### XX YÜZİLLİKDƏ İNSANLIĞA QARŞI TÖRƏDİLƏN ƏN AMANSIZ SOYQIRIMI

Ötən əsrin ən böyük faciələrindən biri kimi tariximizdə iz salan Xocalı soyqırımı XX yüzillikdə insanlığa qarşı törədilən ən amansız faciələrdən sayılır. 1992-ci il fevralın 25-dən 26 - na keçən gecə - Xocalı soyqırımı xalqımızın növbəti faciəsinin yaşadığı bir tarixdir. Yeddi min əhalisi olan Xocalı erməni terrorçu qrupları keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasının tərkibində olan 366-cı alayının köməyi ilə müxtəlif növ silahlardan atəşə tutularaq yerlə-yeksan edilmişdir. Qəddarcasına həyata keçirilmiş terror əməliyyatı nəticəsində 613 nəfər şəhid olmuş, onlardan 56-sı xüsusi qəddarlıqla qətlə yetirilmiş, 487 nəfər ağır yaralanmış 1430 nəfər əsir götürülərək, amansız işgəncələrə məruz qalmış, onların 135 nəfərinin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri isə qocalar olmuşdur. 8 ailə tamamilə məhv edilmiş, 27 ailənin hərəsindən yalnız bir nəfər sağ qalmışdır.

### "BİZ HƏRBİ CİNAYƏTKARLARIN MƏSULİYYƏTƏ CƏLB EDİLMƏSİ ÜÇÜN CİDDİ HÜQUQİ TƏDBİRLƏR GÖRƏCƏYİK"

44 günlük Vətən müharibəsində ermənilərin cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması onların çirkin niyyətlərini bir daha göz önündə canlandırdı. Uşaq, qoca terrora məruz qaldı. Elə Bərdədə də yaşanılan hadisələr də ermənilərin faşist əməllərini təsdiqlədi. Beləliklə, dünyanın gözü qarşısında ermənilər bəşəriyyət tarixində ən ağır cinayətlər törədirlər. Bütün bunların planı əvvəldən hazırlanmışdır. "Hərbi cinayətlər üzrə beynəlxalq tribunal kifayət qədər siyasiləşdirilmiş, ikili standartlara, fərqli yanaşmalara əsaslanan təsisatdır və son illərin hadisələri bunu dəfələrlə sübut edib", - bildirən Cənab Prezident qeyd edib ki, Ermənistanın Qərbdə mövcud olan bu cür lobbist potensialı, Ermənistanın bir sıra Qərb ölkələri ilə xüsusi münasibətləri nəzərə alınmaqla, tam səmimi deyirəm, bizim buna nail olacağımıza ümid etmək çətindir:"Hətta buna nail olsaq belə, onun Azərbaycana qara yaxmaq üçün növbəti vasitəyə çevrilməyəcəyinə, ədalətli məhkəmə olacağına zəmanət yoxdur. Lakin bununla bərabər, əlbəttə, müharibə dövründə törədilmiş hərbi cinayətlərlə bağlı bütün faktlar sənədləşdirilib və təbii ki, biz hərbi cinayətkarların məsuliyyətə cəlb edilməsi üçün ciddi hüquqi tədbirlər görəcəyik".

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, dövlətimizin gücü, rəşadətli ordumuzun dönməzliyi nəticəsində xalqımız qələbə sevincini yaşadı. Bu gün işğaldan azad olunan torpaqlarda Azərbaycan bayrağı dalğalanır və yeni bir həyat canlanır. Qarabağ Azərbaycandır!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Zaqatalada Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb



YAP Zaqatala rayon təşkilatının fəalları, Zaqatala rayon icra hakimiyyətinin rəhbərliyi, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri Vətən müharibəsində döyüşlərdə qəhrəmancasına şəhid olan Zaqatala rayon Muğanlı kənd sakini Xəlilli Nicat Əli oğlu, Qandax kənd sakini Əhmədli Aydın Mustafa oğlu, Yeni Suvagil kənd sakini Məmmədov Fəqan Vahid oğlunun ildönümü ilə əlaqədar məzarlarını ziyarət edib, məzarları üzərinə gül-çiçək dəstələri düzərək, əziz xatirələrini böyük ehtiramla yad ediblər. Daha sonra şəhidlərin ailəsini ziyarət edib, onların qayğı və problemləri ilə yaxından maraqlanıblar. Şəhidlərimizin ailə üzvləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan məmnun olduqlarını ifadə ediblər.

***Z. BAYRAMOVA***

# Zərdabda şəhid məzarlarının ətrafının abadlaşdırılması aksiyası davam edir







Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının əməkdaşları və bir qrup YAP fəalları şəhid məzarlarının ətrafının təmizlənməsi və abadlaşdırılması aksiyası çərçivəsində fəaliyyətlərini davam etdirirlər. Rayon təşkilatı aparatının əməkdaşları və partiyanın bir qrup fəal üzvləri rayonun Gəlmə kəndi ərazisində, şəhidlərin dəfn olunduğu məzarlıqda 2020-ci il oktyabrın 9-da torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalmış Məmmədzadə Anar Nazim oğlunun məzarını ziyarət ediblər. Eyni zamanda, həmin məzarlıqda dəfn olunmuş digər şəhidlərin də məzarları ziyarət olunaraq, ətrafda təmizlik və səliqə-səhman işləri aparılmışdır.

Əməkdaşlar və fəallar təmizlik işlərindən sonra şəhidlərin məzarları üzərinə gül-çiçək dəstələri düzüblər.

Qeyd edək ki, 1999-cu il avqustun 3-də Zərdab şəhərində anadan olmuş Məmmədzadə Anar Nazim oğlu Füzuli rayonu uğrunda gedən döyüşlərdə, qəhrəmancasına döyüşərək şəhid olmuşdur. Anar Məmmədzadə Prezident İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

***ZÜMRÜD***

# Şəmkirdə Gəncə terrorunun qurbanları anılıb





Şəmkir rayon İcra Hakimiyyəti və YAP Şəmkir rayon təşkilatının nümayəndələri Gəncə terroru nəticəsində şəhid olmuş Anar Adil oğlu Əlyevin və həyat yoldaşı Nurçin Emin qızı Əliyevanın ildönümü ilə əlaqədar məzarları ziyarət olunub, sonra ailə üzvləri ilə görüşüblər. Görüşdə Şəmkir rayon İcra Hakimiyyəti başçısının müavini, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, YAP Şəmkir rayon təşkilatının fəalları iştirak etmişlər.

İlk öncə Gəncə terroru nəticəsində şəhid olmuş Anar Əliyevin və həyat yoldaşı Nurçin Əliyevanın məzarları ziyarət olunub, üzərinə tər güllər düzlüb, əziz xatirələrini böyük ehtiramla yad ediblər. Daha sonra tədbir iştirakçıları şəhidlərin ailə üzvlərini ziyarət edib, onlara maddi və mənəvi dəstək olublar. YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev çıxış edərək bildirmişdir ki, savaşın başladığı ilk günlərdən Azərbaycan xalqı Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsinin qələbə ilə başa çatacağına tam əmin idi. Bu əminlik 44 gün davam edən savaşda özünü tamamilə doğrultdu. Azərbaycanın "Dəmir yumruq" əməliyyatı dünyaya səs saldı. Tarixi Zəfərimizi, torpaqlarımızın işğaldan azad olunmasını 30 il gözlədik. Ermənistan əzəli ata-baba torpaqlarımızı əbədi işğal altında saxlamaq istəyirdi. Amma bunun boş xəyallar olduğunun da fərqində idi.



F.Vəliyev qeyd etdi ki, 2020-ci ildə sentyabrın 27-dən başlayaraq hərbi əməliyyatların getdiyi yerdən təxminən 100 kilometr aralıda yerləşən Gəncə şəhəri bir neçə dəfə atəşə məruz qalmışdır. Ermənistan silahlı qüvvələrinin törətdikləri təxribat nəticəsində Gəncə şəhərində 25 dinc sakin həlak olmuşdur, 100-dən çox dinc sakin isə müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. 7 yaşayış binası tamamilə dağılıb, 100-lərlə obyektə ciddi ziyan dəymişdir. 11 oktyabr 2020-ci il tarixində saat 02:00 radələrində Ermənistan Silahlı Qüvvələri daha bir terroru nəticəsində Şəmkir rayonunun Çinarlı qəsəbəsindən olan Anar Adil oğlu Əliyev və onun həyat yoldaşı Nurçin Emin qızı Əliyevada həyatlarını itirmişlər. Şəhidlərin valideynləri göstərdikləri diqqət və qayğıya görə dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

***Rəfiqə***

# YAP Şabran rayon təşkilatı "Şəhid ailələrinə qayğı" aksiyasını davam etdirir



Şabran rayonundan olan Şəhid Balağayev Seyfəddin Vahid oğlunun ildönümü ilə bağlı anım mərasimi keçirilib. Mərasimində YAP Şabran rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən Mehdi Balabəyov, şəhid ailələri, YAP əməkdaşları, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Eyni zamanda, Şabran rayonunda şəhid Orucov Ürfanın doğum günündə əziz xatirəsinə həsr olunmuş barelyef abidə kompleksinin açılışı olub.



Açılışda YAP Şabran rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən Mehdi Balabəyov, YAP Şabran rayon təşkilatının nümayəndələri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Həmçinin, Şabran rayon Çayqaraqaşlı kəndindən olan Şəhid Aydəmirov Beyrək Etibar oğlunun ildönümü ilə bağlı anım mərasimi keçirilib. Anım mərasimində YAP Şabran rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən Mehdi Balabəyov, şəhid ailələri, YAP əməkdaşları, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Bundan sonra da YAP Şabran rayon təşkilatında "Şəhid ailələrinə qayğı" aksiyası davam edəcək. Allah şəhidlərimizə rəhmət eləsin.

***Rəfiqə***

# YAP Şamaxı rayon təşkilatının nümayəndələri şəhidin il mərasimində iştirak ediblər





YAP Şamaxı rayon təşkilatının əməkdaşları İkinci Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalmış Manafov Zahir Zakir oğlu, Amanaliyev Tərlan Rövşən oğlu və Ələkbərov Natiq Faiq oğlunun şəhid olmasının ildönümü ilə əlaqədar təşkil edilmiş il mərasimində iştirak ediblər. Həmçinin, şəhidin məzarı ziyarət edilərək önünə gül dəstələri qoyulub şəhidin ruhlarına dualar oxunub. Sonra YAP Şamaxı rayon təşkilatının əməkdaşları Nağaraxana kəndində şəhid Leytenant Hüseynov Eldost Asəf oğlu və MAXE Orucov Ceyhun Namaz oğlunun adlarının əbədiləşməsi məqsədilə yeni inşa olunmuş bulağın açılışında iştirak etmişlər.

Tədbirdə YAP Şamaxı rayon təşkilatının sədr əvəzi Bəxtiyar Abbasov ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyası Zəfərimizin qəhrəmanları olan şəhidlərimizin, qazilərimizin vətənpərvərlik yolunun təbliğində fəal iştirak edir, şəhidlərin ailələrinə, hərbçilərə diqqət və qayğısını reallaşdırdığı tədbirləri ilə təsdiqləyir.

***Rəfiqə***

# Sorosu Azərbaycana kim qaytardı (USAİD-in köməkliyi ilə)?

## ANALİTİKA+ŞOK FAKTLAR!

## Yaxud, USAİD Azərbaycana qarşı qanunsuz fəaliyyətini hansı üsullarla genişləndirir?



**"İnqilablar mühəndisi" adlandırılan və vaxtilə Azərbaycandan qovulan milyarder Corc Soros ABŞ-da anti-Turkiyə və anti-Azərbaycan xarakterli çıxış və bəyanatları ilə tanınan Co Bayden komandasını bəlkə də ABŞ tarixində ilk dəfə - müəmmalı seçkilər vasitəsi ilə hakimiyyətə gətirdikdən və erməniprəst Samanta Paueri USAİD-in rəhbəri təyin etdikdən sonra, milyarderin himayəsində olan bu qurumun ölkəmizə qarşı fəaliyyətini genişləndirəcəyi labüd idi və zamanında verilən proqnozlar da artıq özünü kifayət qədər doğruldub. Təkcə bir faktı qeyd edə bilərik: USAİD Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir və hələ də bir ölünü - "Dağlıq Qarabağ"ı tanıyaraq separatçı qurumla çalışır, maddi yardımlar edir, necə deyərlər, quldur rejimin ayaqda qalıb yenidən terrorçu meyillərini icra etməsi üçün pullar xərcləyir!**

**Aşağıda linklərə bax:**

https://sia.az/az/news/politics/896342.html

https://sia.az/az/news/politics/896995.html

Sorosun təşkilatı hələ də Azərbaycandadır (???!!!)



East-West Management Institute Executive Team (2)

| Name | Title |
|---|---|
| Adrian Hewryk | President |
| George Soros Ph.D | Founder |

EAST · WEST MANAGEMENT INSTITUTE

Bütün bunlara baxmayaraq USAİD hələ də Azərbaycanda fəaliyyət göstərir və bu da azmış kimi, himayəsində olduğu Sorosun ölkəmizdə gizli şəkildə fəaliyyət göstərən Şərq-Qərb İdarəetmə İnstitutu (ŞQİİ- East-West Management İnsitute (EWMI) adlı təşkilatına davamlı olaraq milyonlarla qrantlar ayırır.

Bu təşkilatla bağlı biz silsilə yazılarla çıxış etmişik. Xatırladaq ki, rəngli inqilablarını təşkili ilə məşğul olan Sorosla bağlı bütün təşkilatlar ölkəmizdən 2014-cü ildə çıxarılanda, ŞQİİ-in bağlanması ilə bağlı İqtisadiyyat Nazirliyinin Prezident Administrasiyasına göndərdiyi məktuba rəğmən bu təşkilat ölkədə qaldı və indi də tam qanunsuz şəkildə fəaliyyət göstərir (?!)

Təşkilatın fəaliyyəti ilə bağlı əvvəllər qeyd etdiyimiz müəmmaları bir daha xatırlatmaq istədik:

Beləliklə, Corc Soros hələ 1991-ci ildə yazdığı və bütün dünyada siyasi çevrilişlərin təşkili üzrə "müqəddəs" masaüstü kitabı kimi qəbul olunan "Demokratiyanı Quraraq (Undewriting democracy)" adlı "əsərində" "Şərq-Qərb İdarəetmə İnstitutunu" hansı məqsədlə yaratdığını açıq şəkildə etiraf edir.

**Soros deyir ki...**




SİTAT:" . Sonralar mən "Mərkəzi Avropa İnstitutu" və "Şərq-Qərb İdarəetmə İnstitutu"nu yaratdım və mən bunları daimi təsisatlar kimi nəzərdə tuturdum. Aydın idi ki, ölkələr üzrə yaratdığım fondlar əvvəl-axır süquta uğrayacaqlar. Belə ki, zülmkar və doqmatik sistemlər tam məhv edildikdən sonra yerli vətəndaş təşkilatlarını dəstəkləməyə ehtiyac qalmayacaqdır ..."

*Tam şəkildə yazı ilə aşağıdakı linkdən tanış ola bilərsiniz:*

https://www.georgesoros.com/wp-content/uploads/2017/10/underwriting_democracy-chap-7-2017_10_05.pdf

Beləliklə, 1988-ci ildə Soros tərəfindən təsis olunan "Şərq-Qərb İdarəetmə İnstitutu" (ŞQİİ) adlı təşkilat hələ 2004-2006-cı illərdə digər qalmaqallı təşkilat kimi tanınan - "Beynəlxalq Xilasetmə Komitəsi" adlı bir qurum vasitəsi ilə ölkəmizdə qısamüddətli layihə icra etməklə buradakı vəziyyəti təhlil etmiş və növbəti illərdə yeni layihələrlə gəlmək planlarını hazırlamışdır və bu təşkilat 7 aprel 2009-cu ildə Azərbaycanla ABŞ hökumətləri arasında "Amerika Birləşmiş Ştatların Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında "Azərbaycanda Seçilmiş Amerika Hökuməti Yardım Proqramlarının Birgə Maliyyələşdirilməsi üzrə Anlaşma Memorandum"u imzalandıqdan sonra fəallaşır.

Sözügedən saziş çərçivəsində ölkələr ümumi məbləği 45 milyon ABŞ dolları həcmində vəsaiti dörd müxtəlif layihənin maliyyələşməsi üzrə razılığa gəlirlər ki, bu məbləğin də 20,7 milyon ABŞ dollarını Azərbaycan hökuməti USAİD-in hesabına köçürmüşdür. Dörd layihədən biri kimi "Regional Sosial İqtisadi İnkişaf Proqramı" (SEDA) adlı layihənin icrası da nəzərdə tutulurdu. Belə ki, bu proqram çərçivəsində bildirilir. SİTAT: "USAİD təfsilatlı regional sosial-iqtisadi inkişaf strategiyası və proqramının hazırlanması və icrasına dəstək göstərəcəkdir."

Lakin layihəni "udan" (həm qalib, həm də vəsaitləri mənimsəmək baxımından) ŞQİİ onu tam başqa istiqamətdə yönəltmək cəhdində bulunub.

*Onları mərhələli qaydada təqdim edirik:*

**1.** Bu layihənin büdcəsi hər tərəfin bərabər töhfəsi olmaqla 14.4 milyon ABŞ dolları məbləğində müəyyən edilib. Halbuki, razılaşmaya əsasən, hər dörd layihəni icra edəcək təşkilatların seçimini tərəflər birgə aparmalı idi. Yəni meydana çıxan fakt budur - USAİD birtərəfli olaraq Azərbaycan hökumətinin iştirakı olmadan SEDA layihəsinin icraçısı kimi məhz Sorosun (!) təsis etdiyi "Şərq Qərb İdarəetmə İnstitutunu" müəyyən edir.



**2.** ŞQİİ tərəfindən layihənin bu qurumun Nyu-Yorkdakı ofisindən əlaqələndirici kimi qalmaqallı sorosçu Delina Fico təyin edilir. Bu qadın cisminə geyinmiş sorosçu iblis haqqında biz ətraflı yazmışdıq:

https://sia.az/az/news/politics/856643.html

Delina Fico layihənin bütün büdcəsinə nəzarət edir və məsafədən layihənin icrasına mütəmadi müdaxilə edir.

**3.** USAİD tərəfindən layihənin Sorosla bağlı təşkilata verilməsi Azərbaycan hökumətini hiddətləndirir və həm layihəni, həm də layihənin icraçısı olan ŞQİİ-ni qeydiyyata almaqdan imtina edir. Təşkilat isə bu qərarı saymayaraq bu günə qədər Ədliyyə Nazirliyində qeydiyyatdan keçmədən (!!!) fəaliyyət göstərir.

**4.** İkitərəfli memorandumda qeyd olunan əsas məqsədlərə rəğmən, ŞQİİ layihənin məqsədlərin tam dəyişməklə layihəni 3 komponentə bölərək, regional inkişaf məqsədlərindən uzaq fəaliyyətlər həyata keçirməyə cəhdlər edir.

**5.** 2016-cı ildə ikitərəfli memorandumun müddəti bitir, lakin Soros Azərbaycanda təmsilçiliyini saxlamaqdan ötrü USAİD vasitəsi ilə ŞQİİ-yə əlavə olaraq 8 milyon ABŞ dolları ayırır və beləliklə, Sorosun təşkilatına Azərbaycan hökumətində töhfəsi daxil olmaqla ümumilikdə təxminən 22 milyon ABŞ dolları məbləğində vəsait faktiki olaraq hədiyyə edilir.

**6.** Xüsusilə qeyd etmək lazımdır ki, USAİD-in layihələri üzrə icraçı təşkilatlar müəyyən faizlə gəlir əldə edirlər. Həmin vəsaitin məbləği "Qeyri-müstəqim Xərclərin dərəcəsi üzrə Saziş" (NEGOTIATED INDIRECT COST RATE AGREEMENT(NICRA)) adlı sənədlə müəyyən edilir. Maraqlısı isə budur ki, ŞQİİ-nin belə saziş üzrə gəlir dərəcəsi ağlasığmaz - 29% səviyyəsində müəyyən edilmişdir. Halbuki ümumi qayda olaraq beynəlxalq təcrübədə analoji QHT-lər və layihələr üçün bu dərəcələr 15% civarında olur. Bu, o deməkdir ki, ŞQİİ və yaxud dolayisi ilə Soros, bu layihədən sırf gəlir kimi 6 milyon ABŞ dollarından çox məbləğdə gəlir əldə etmişdir.

Bundan əlavə Delina Fico başda olmaqla ŞQİİ-nin baş ofisinin bir neçə əməkdaşı baş ofis tərəfindən yuxarıdakı məbləği mənimsəməsinə baxmayaraq yenə də yüksək məvaciblərlə layihənin büdcəsinə daxil edilir. Qeyd etmə lazımdır ki, ABŞ tərəfi hər dəfə ölkəmizə necə deyərlər, minnət qoyaraq böyük vəsaitlərin xərcləndiyini bəyan edəndə, Soros tərəfindən oğurlanmış bu məbləğlər də həmin rəqəmlərə daxil edilir.

**7.** Layihə çərçivəsində faktiki olaraq heç bir əməli fəaliyyət göstərmədən, Delina Fico layihə üçün yalnız başağrısı və problemlər yaratmaqla məşğul olaraq hər ay təxminən 12 min ABŞ (!) dolları məbləğində əməkhaqqı alır (?!) Kobud



desək, evində otura-otura... Layihənin davam etdiyi 10 il ərzində isə bu təxminən 1,5 milyon ABŞ dolları edir (!).

**8.** Bundan əlavə, ŞQİİ Azərbaycanın dövlət büdcəsindən 7 milyon dollar ayrılan proqramda ilkin sazişdə nəzərdə tutulduğu 162 infrastruktur layihə əvəzinə cəmi 114 layihə icra etmişdir. Nəzərə alsaq ki, hər layihənin orta hesabla dəyəri 20 min ABŞ dolları, burda söhbət əlavə olaraq təxminən 960,000 ABŞ doları məbləğində vəsaitin "itməsindən" gedir.

*Ardı Səh. 13*

# Sorosu Azərbaycana kim qaytardı (USAİD-in köməkliyi ilə)

## ANALİTİKA+ŞOK FAKTLAR!

EAST • WEST MANAGEMENT INSTITUTE

## Yaxud, USAİD Azərbaycana qarşı qanunsuz fəaliyyətini hansı üsullarla genişləndirir?

Əvvəli Səh. 12

**9.** Üstəlik, SEDA çərçivəsində 91 kəndə "vətəndaş iştirakçılığı" üzrə layihələrə hər biri ən azı 5,000 ABŞ dolları qrantlar verməli idi ki, ŞQİİ cəmi 6 qrant vermişdi, bu da yenə də əlavə olaraq 85 layihə üzrə 425,000 ABŞ dolları təşkil edir.

**10.** Amma ŞQİİ layihə çərçivəsində törətdiyi ən böyük fırıldaq bütün digər fırıldaqları kölgədə qoyur. Bəs fırıldaq nədən ibarət idi?

Layihənin əsas fəaliyyəti istiqaməti üzrə komponenti üzrə ŞQİİ Azərbaycanın ehtiyacı olan kənd yerlərində kiçikmiqyaslı infrastruktur layihələr həyata keçirirdi. Və ŞQİİ belə layihələrin icrası üçün müraciət edən kəndlərdən icra olunacaq layihənin ümumi məbləğinin 25% töhfə kimi ödəmələrini tələb edirdi, şərt qoyurdu. Araşdırmamız nəticəsində məlum olub ki, məhz kasıb kəndlilərin topladığı töhfələr hesabına ŞQİİ layihə üzrə öz öhdəliklərini yerinə yetirirmiş. Belə ki, USAİD ilə ŞQİİ arasında layihə üzrə imzalanmış müqaviləyə əsasən icraçı (yəni ŞQİİ) proqramın icra olunmasına 1,459,326 ABŞ dolları məbləğindən az olmayan həcmdə vəsaiti proqramın icrasına töhfə verməyi öz üzərinə götürür.

**11.** Hətta yeni koronavirus pandemiyası belə, ŞQİİ və Delina Ficonun maddiyyat qazanmaları yönündəki qanunsusluq azğınlıqlarına son qoymadı. Onlar bu vəziyyətdən də öz qurama "kreativlikləri" sayəsində faydalanmağa macal tapdılar və şübhəsiz ki, bütün tədbirlər həmişəki kimi sırf gəlir əldə etməyə yönəlmişdir. Pandemiyanı bəhanə gətirərək ŞQİİ birinci növbədə bu il ərzində icra etməli layihələrin sayını 36-dan 30-a endirərək ən azı 120,000 ABŞ dolları məbləğində vəsaitə "qənaət" edib, kobud ifadə etsək, həmin məbləği də həzm-rabeəsindən keçirib.

**12.** Beləliklə, ŞQİİ-ni bütün fırıldaqları nəticəsində bu təşkilat 22 milyonluq layihənin ümumilikdə təxminən 10,5 milyon ABŞ dolları həcmində vəsaitini mənimsəyib. Nəzərə alsaq ki, layihə müddətində manatın kursu iki dəfə dəyişib, o halda büdcəsi dollarla olan bu təşkilatın real qazanclarının miqyası haqqında gözəl təsəvvür yaratmaq olar. Ən əsası, mənimsəmələr əsasən, bilavasitə 2011-2016-cı illərdə baş vermişdir, yəni Azərbaycan hökumətinin vəsaiti xərclənən dövrdə.

**13.** Delina Fico layihənin yalnız birinci komponenti, yəni Azərbaycan hökumətini qane edən fəaliyyətin qalmasından çox narazı idi və 2018-ci ildə layihənin növbəti dəfə uzadılması məsələsi gündəmə gələndə sorossayağı "ictimai" fəaliyyətlərini layihəyə daxil etmək istədi. Lakin o vaxt ki yerli rəhbərlik buna yol vermədi. Çox təəssüf ki, bu dəfə Delina istədiyinə nail olub və yeni layihənin məqsədi məhz ölkədə "inqilab" meylərinin yaradılmasıdır. Delinanın yeni layihəsi haqqında isə aşağıda məlumat verəcəyik.

**14.** ŞQİİ mütəmadi olaraq külli vəsaitlər müqabilində ölkəyə xarici vətəndaşları ekspert qismində dəvət edir və təşkilat qanunsuz, qeydiyyatsız fəaliyyət göstərdiyi üçün, onlar Azərbaycana turist vizaları əsasında daxil olurlar, fəaliyyətlərini də həmin statusda aparırlar və faktiki olaraq milli əmək qanunvericiliyini pozurlar. Bundan əlavə, həmin şəxslər burada faktiki əmək fəaliyyətləri ilə məşğul olmalarını rəsmi bəyan etməməklə əmək fəaliyyəti üçün icazələr üzrə nəzərdə tutulmuş rüsumları ödəmirlər, bu da büdcənin itirilmiş gəlirlərinə aid edilə bilər.

Həmin şəxslər 3 aydan bir ölkəni ya Rusiya, ya da Gürcüstan istiqamətindən tərk edib yenidən ölkəyə daxil olurlar. Şübhəsiz ki, həm bu ekspertlərə həm də onların viza macəralarına xərclənən vəsaitləri daha da səmərəli istifadə etmək olardı. Amma görünür ki, həmin şəxslərin ölkəyə gətirilməsində gerçək məqsədlər iddia olunanlardan fərqlidir, yəni daha dəqiq desək, qaranlıqdır. Belə ki, hazırda ölkəmizdə bütün sahələr üzrə son dərəcə savadlı kadrlar mövcuddur və xaricdən bu sayda bahalı "ekspert" gətirməyə lüzum yoxdur. Hazırda da ölkədə bu "əsaslarla" fəaliyyət göstərən ekspertlər vardır. Və onlardan bəziləri "rəngli inqilablar" üzrə başqa ölkələrdə təcrübə əldə etmiş adamlardırlar. (ətraflı aşağıda).

**15.** ŞQİİ-nin digər qanunsuz fəaliyyəti özbaşına olaraq tenderlər keçirilməsidir. Maraqlıdır, qeydiyyatda olmayan bu qurum hansı əsaslarla ölkədə tenderlər keçirir?! Əslində, tender komissiyasının sədrinin artıq yaxşı tanıdığımız Delina Ficonun olması artıq özü-özlüyündə bu sualın cavabını bütün çılpaqlığı ilə göstərir!

Mühüm qeyd: Azərbaycan Respublikasının 11 fevral 1997-ci il tarixli 247-IQ saylı Tenderlər Haqqında Qanunun 1-ci maddəsinə əsasən : "tender keçirən" - Azərbaycan Respublikası adından və ya öz adından tender hazırlayan, elan edən, keçirən və nəticəsi üzrə müəyyən öhdəlikləri yerinə yetirən, yaxud bunları (tenderin nəticəsi üzrə öhdəliklər götürərək icra etməkdən başqa) müqavilə əsasında da hər hansı bir icraçıya həvalə edən hüquqi şəxsdir."

Yəni ŞQİİ ölkədə hüquqi şəxs kimi qeydiyyatdan keçmədən, ümumiyyətlə, hər hansı bir tender keçirə bilməz. Tenderin keçirilməsi prosedurları isə, ümumiyyətlə, qanunun bir çox maddəsini pozur.

**16.** Tenderə çıxarılan infrastruktur layihələri isə ŞQİİ mühəndislik fəaliyyətinə rəsmi icazəsi-lisenziyası olmayan mühəndisləri tərəfindən hazırlanır ki, bu da bir başqa qanun pozuntusudur. Üstəlik, qeyri-peşəkar hazırlanmış mürəkkəb layihələrin icrası təhlükəsizlik baxımından da böyük suallar yaradır. Və layihənin icrası müddətində bununla bağlı bir sıra ciddi problemlər yaranmış, hətta USAİD bir müddət ŞQİİ layihələrinin icrasını dayandırmağı tapşırmışdır. Lakin Sorosun müdaxiləsindən sonra, layihə yenə də davam etdi.

**17.** Layihə kifayət qədər həssas regionlarda, yəni Rusiya və İranla sərhədlərdə fəaliyyət göstərirdi. Və əldə etdiyimiz məlumatlara görə, bu regionlarda ŞQİİ fəaliyyətlərinə başlamaq üçün USAİD-dən əlavə vəsait alınmasını əsaslandırmaq üçün Delina Fico eyniliklə Avropa İttifaqı ilə yönəldilməli olduğu siyasətdən və təhdiddən istifadə etmişdir. Bu haqda biz əvvəllər yazmışdıq. Delina Fico avropalıları belə qorxutmağı təklif etmişdi: "Siz bilirsiz ki, biz insanlarla onlar başa düşən dildə danışmalıyıq. Və Qərbi Balkan ölkələrinə gəldikdə əksər xarici diplomatların başa düşdüyü dil çox sadədir: Rusiya təsiri, potensial etnik-arası münaqişələr, zorakı ekstremizm və artan miqrasiya səviyyəsi..."

Əldə etdiyimiz məlumatlara görə, SEDA layihəsinin 2016-cı ildə sonra məhz İran və Rusiya ilə sərhəd rayonlarnda fəaliyyətə başlaması üçün Delina Fico tam eyni təhdid və arqumentlərdən istifadə etmişdi: Rusiya və İran tərəfindən təsirin qarşısının alınması, zorakı ekstremizm məsələləri və həmin regiondan miqrasiya axınlarının qarşısının alınması. Xatırladaq ki, hazırda ŞQİİ Şimal və Şimal Qərbdə Balakən, Qax, Zaqatala, Quba, Qusar, Xaçmaz, rayonlarda və Cənubda Lerik, Yardımlı və Astarada fəaliyyət göstərir. Görəsən Sorosla bağlı təşkilatların sərhədyanı regionallarda fəaliyyət göstərməsi nə dərəcədə məqsədəuyğundur?

**18.** ŞQİİ-u hökumət tərəfindən qeydiyyata alınmamasının yarandığı vəziyyətdən də məharətlə yayınır və hətta sui-istifadə edir və bəhrələnir. Belə ki, ŞQİİ bütün fəaliyyətlərini birbaşa özünün Nyu-York ofisindən həyata keçirir, bütün büdcə resurslarını oradan idarə edir, fəaliyyəti ilə bağlı bütün müqavilələr orda imzalanır və bütün müqavilələrdə "mübahisələrin" məhz Nyu-York məhkəmələrində baxılması nəzərdə tutulur ki, bu da bütün yerli tərəfdaşları faktiki olaraq bu təşkilatdan tam asılı vəziyyətə salır. Yəni icraçı təşkilatlardan biri vəsaitin köçürülmədiyindən narazılığını bildirdikdə, ona deyilmişdi ki, Nyu-York məhkəməsinə müraciət etsin. Amma bir sözlə desək, ŞQİİ qeydiyyata alınmadığına görə, Azərbaycan vətəndaşlarından bu formada necə deyərlər, acığını çıxır, özü də buna görə heç bir məsuliyyət daşımır!

Üstəlik, layihənin bilavasitə ABŞ-dan idarə olunması vergidən yayınmalar üçün şərait yaradır və bunun üçün nəzərdə tutulan vəsaitlərin mənimsənilməsinə şərait yaradır. Məsələn ŞQİİ bütün işçiləri fərdi sahibkar kimi işə götürür və nəticədə sosial ayırmalardan boyun qaçırır. Halbuki, ŞQİİ rahatlıqla yerli partnyor təşkilat taparaq onun vasitəsi ilə bütün fəaliyyətlərini qanun çərçivəsində idarə edə bilərdi. Aydın məsələdir, bu kimi "fərqli" niyyətləri olan ŞQİİ üçün məqbul variant sayıla bilməz.

**19.** Bundan əlavə, Delina Fico əvvəllər ŞQİİ-da ona yaxın olmuş və nəzarətində fəaliyyət göstərmiş şəxsləri digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarında həm də digər şirkətlərdə işə düzəlməkdə bulunur, ünsiyyətdə olduğu bəzi dövlət məmurlarını müxtəlif mükafatlar və ya digər növ ödənişlər təklif etməklə özünə dəstək yaratmaqla məşğuldur, bu da Sorosun şəbəkələnmə taktikasının əsas elementidir.

Beləliklə, yuxarıda ŞQİİ törətdiyi pozuntuların bir qismini qeyd etdik. İndi isə ŞQİİ fəaliyyətini əhatə edən əsas mümməalar haqqında bir neçə faktı diqqətinizə çatdırmaq istərdik:

*** ŞQİİ Azərbaycanda 10 ilə (!) yaxındır ki, tam qanunsuz, yəni Ədliyyə Nazirliyində qeydiyyatdan keçmədən fəaliyyət göstərir. Sonuncu dəfə qeydiyyatdan imtina haqqında qərar Ədliyyə Nazirliyi tərəfindən 5 oktyabr 2020-ci il tarixində göndərilmişdir. Heç SEDA layihəsi üzrə qrant belə qeydiyyatdan keçməmişdir.

*** ŞQİİ-nin fəaliyyətini əhatə edən ikitərəfli memorandumun müddəti 2016-cı ildə bitdiyinə baxmayaraq, naməlum səbəblərdən ŞQİİ hələ də (?) ölkədədir.

*** Ölkəmizdə fəaliyyət göstərən QHT-lərin nəzarətə götürüldüyü 2014-cü ildə ŞQİİ-in icra etdiyi SEDA layihəsi üzrə əsas nəzarətçi olan "İqtisadiyyat və Sənaye Nazirliyi (nazirliyin 2014-cü il üçün hesabatından sitat) sözügedən layihələrin davam etdirilməsinə birtərəfli qaydada xitam verib. Həmin sitatı xatırladırıq: "...Sosial-İqtisadi İnkişaf Fəaliyyəti (SEDA) layihəsinin həyata keçirilməsinə xitam verilməsi barədə Azərbaycan Respublikası Prezident Administrasiyasına məktub ünvanlanmışdır ". Lakin bu müraciət cavabsız qalmışdır...

*** Ədliyyə Nazirliyinin ŞQİİ-unun qeydiyyata alınması ilə bağlı müraciətinə məhz İqtisadiyyat Nazirliyi tərəfindən mənfi rəy daxil olduğu üçün ŞQİİ hazırda da ölkədə qeydiyyata alınmadan yəni faktiki qanunsuz fəaliyyət göstərir. Lakin, ŞQİİ qanunsuz fəaliyyətlərinin hamısında və bütün elan və digər sənədlərində xüsusi vurğulayır ki, guya layihə İqtisadiyyat Nazirliyi ilə birlikdə həyata keçirilir, halbuki, bu layihə üzrə və ümumiyyətlə, ŞQİİ və İqtisadiyyat nazirliyi arasında heç bir hüquqi və yaxud digər anlaşma heç vaxt olmayıb və ola da bilməz. Layihəyə dair istənilən fəaliyyətlərlə bağlı yazışmaları İqtisadiyyat Nazirliyi birbaşa USAİD-lə aparırdı. ŞQİİ sadəcə Nazirliyin adından sui istifadə edirdi.

### Soros özünə USAİD-dən daha 15 milyon ayırdı

Və bütün yuxarıda qeyd olunan pozuntular, yeyintilər, korrupsiya faktlarına baxmayaraq, Soros özünün ŞQİİ adlı pozucu qurumunu Azərbaycanda saxlamaqdan ötrü USAİD-də yenidən 15 milyon dollar məbləğində qrant ayırtdırdı. Layihənin müddəti 5 il adı isə "Səs", yəni hətta adından görünür ki, layihənin məqsədi insanlara "səslərini ucaltmağı" öyrətmək və onlara bu işdə "köməklik" etməkdir - gerçək məqsəd isə, Azərbaycanda "rəngli inqilab" üçün baza yaratmaq və onun dəstəkləməkdən ibarətdir. Yeni layihənin digər əsas məqsədi, mərkəzsizləşdirmə proseslərinin yayılmasıdır ki, bu da birbaşa separatizm meyillərinin dəstəklənməsinə yönəlmiş fəaliyyət kimi dəyəndirilməlidir.

Və bu fəaliyyətləri idarə edməkdən ötrü, Soros digər ölkələrdə onun "rəngli inqilablar" konspesiyalarını uğurlar həyata keçirmiş şəxsləri gətirir. Məsələn, yeni layihənin rəhbərliyinə Sorosun ən çox uğur əldə etdiyi və hətta medalı ilə təltif olunduğu Ukraynadan Yuliya Yeşmuxanova (Yulia Yesmukhanova) adlı şəxs gətirilmişdir ki, həmin şəxs Ukraynada Sorosun maliyyələşdirdiyi DOBRE adlı layihəsini icra edən əsas simalardan biridir.



https://www.globalcommunities.org/dobre

Bu, özü-özlüyündə Azərbaycanın QHT qanunvericiliyinin kobud şəkildə pozulmasıdır. Belə ki, Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Azərbaycan Respublikasının Qanununun 7.5-ci maddəsində qeyd olunur: "...Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər, habelə xarici hüquqi şəxslər tərəfindən təsis edilmiş qeyri-hökumət təşkilatlarının, eləcə də xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin rəhbərlərinin müavinləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdırlar..." . Soros isə ŞQİİ-nun Azərbaycandakı rəhbərinini də, onun müavinini də özünə yaxın şəxslər olaraq təyin edib.



Nəticədə isə bircə sual yaranır: Maraqlıdır, bəs bu təşkilatın arxasında ölkəmizdə kim(lər) dayanıb ki, Soros istədiyi qanun pozuntularını edir və kimlərsə (?) ŞQİİ adlı qurumun ölkəmizdəki qeyri-qanuni, eləcə də məqsədi heç də yaxşı olmayan fəaliyyətinə göz yumurlar?!

***Rövşən RƏSULOV***

# "Altı daş, üstü aş... yenə rus yaxşıdır"



Demə, 44 günlük Vətən müharibəsinin nəticələrindən təkcə Ermənistan yox, həm də Azərbaycanla Türkiyə də narazı imişlər. Qeyd edək ki, bu fikirləri ötən gün keçmiş parlament sədri və Ermənistanın keçmiş baş naziri olmuş Xosrov Arutyunyan deyir.

Maraqlıdır ki, erməni siyasətçinin fikrincə, tərəflərin narazılığı müharibənin hələ bitməməsi ilə bağlıdır(?).

Arutyunyana görə, bu gün "qarşılıqlı münaqişə" yeni formada davam edir. Çünki qarşı tərəfin, yəni düşmənimizin (təbii ki, bizi nəzərdə tutur) əsas məqsədlərindən biri guya regionda yeni geosiyasi konfiqurasiya formalaşdırmaqdır.

Sabiq erməni spikeri Türkiyəsiz qəbul edilən üçtərəfli bəyanatın "müharibədən gözlədiyini ala bilməyən Ankaranı" da qane etmədiyini bildirir.

Maraqlıdır ki, Arutyunyan bu gün müharibənin nəticəsindən ən şox İranın məmnun qalmamasını bildirərək bu ölkəyə müharibədən sonra Bakını ərazi bütövlüyünün bərpası münasibətilə təbrik etməyə tələsdiyini xatırladır: "...indi isə rəsmi Tehran fəal şəkildə özünün təhlükəsizliyi ilə bağlı suallar qaldırıb".

Bu gün İran Zəngəzur dəhlizi, bu dəhlizin açılışı ilə bağlı məsələdə narazılıq nümayiş etdirir, niyə? Arutyunyana görə, əgər bu dəhlizin açılışı reallaşarsa, bu halda, guya İranın Qara dənizə "çıxışı kəsiləcək". Yəni Qərbə çıxışdan təcrid olunacaq. Bundan əlavə, guya bu halda Azərbaycan İran yük daşıyıcılarını ya Türkiyə, ya da Azərbaycan ərazisindən keçməyə məcbur edəcək ki, bu da "iranlı qardaşlarımızı" heç cür qane etmir.

Qeyd edək ki, Xosrov Arutyunyan "köhnə siyasətçi" kimi "3+3" formatına da toxunub, münasibət bildirir. Belə ki, onun qənaətincə, bütün bu "oyunlar" Qərb ölkələrinin bölgədən sıxışdırıb çıxarmağa hesablanıb. Arutyunyana görə, burada əsas oyunçu olan Rusiyadan başqa, Ermənistanın maraqlarına uyğun olmayan İran və Türkiyə də var.

Yeri gəlmişkən, ötən gün İran İslam İnqilabı Keşikçiləri Korpusunun bölmələrinin Zəngəzura girməsinin qadağan edildiyi məlum olub. Qeyd edək ki, bir müddət əvvəl Tehran və İrəvanın Azərbaycan və Türkiyəyə qarşı çıxmaq üçün İran qoşunlarının Zəngəzurda yerləşdirilməsi ilə bağlı razılığa gəldikləri barədə xəbərlər dolaşırdı. Lakin, deyilənə görə, Rusiya tərəfi buna razılıq verməyib və İran Silahlı Qüvvələrinin bölmələrinin bu ərazilərə girməsinə "icazə verməyib".

Təsdiq edilməmiş məlumatlara görə, bu, Kremlin yaxşı münasibətlər saxlamağa ümid etdiyi Türkiyə ilə olan narazılıqdan irəli gəlir.

Hətta yenə də dolaşan şaiyələrə görə, bu arada Tehranın Zəngəzurda hərbi baza qurmaq niyyətində olduğu barədə də xəbərlər dolaşıb. Guya erməni qardaşlarına canları yanan iranlılar bunun Ermənistanı mümkün hücumdan qorumağa hesablandığını da bildirməyi unutmayıblar. Amma sonradan elə ermənilər də

İranın bu oyunlarının onların öz maraqlarına hesablandığını etiraf ediblər. Belə ki, İranın məlum ərazidə qurmaq istədiyi "baza"nın ermənilərdən daha çox İranın öz məqsədinə, yəni qonşu Türkiyə və Azərbaycana nəzarət etməyə heablandığı heç kəsdə şübhə yeri qoymayıb.

...Amma deyim ki, bu arada bədbin Xosrov Arutyunyandan fərqli olaraq, Qafqaz İnstitutunun direktoru Aleksandr İskəndəryan həmkarından fərqli olaraq daha nikbin danışır.

Yəni o "altı daş, üstü aş... yenə rus yaxşıdır" prinsipini əsas tutaraq, Ermənistanın öz təhlükəsizliyini qardaş Rusiyaya güvənərək qurmağa çalışacağını bildirir.

***Ağasəf Babayev***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Panfarsizm teokratiyasının tiryək dozası

**Beləliklə, gəlin bir daha bizə "qardaş" deyib, düşmənimizin xeyrinə kürəyimizdən xəncər saplayan İranın siyasi dairələrinin riyakar əməllərinə nəzər yetirək. Əslində, çox insanlarımız ağı-qaradan kifayət qədər seçməyi bacarır, fəqət hazırda Azərbaycanda oturub panfarsizm teokratiyasının tiryəkli sərxoşluğuna dalmış və bu sərxoşluğu müqabilində Azərbaycan Respublikasının vətəndaşları olduqlarını unutmuş bir qrup kütləyə anladacaq bəzi, hətta bir çox məsələlər var. Azərbaycanda dini etiqad azaddır və hər kəs istədiyi şəkildə öz ibadət funksiyalarını rahatlıqla yerinə yetirə bilər və kimsə həmin insanlara "nəyə görə ibadət edirsən?" sualını verə bilməz. Bu, vətəndaşlarımızın konstitusion hüquqlarıdır.**

Ancaq son günlərdə, xüsusilə İranın bəlli siyasi məsələlərdə müsəlman Azərbaycana (!) qarşı dil uzatmasından sonra biz artıq bir "irançılar" olaraq adlandırılan panfarsizm teokratiyasının nökərlərinin baş qaldırdıqlarını müşahidə etməkdəyik. Bu, həmin ünsürlərdirlər ki, İranın mollakratiya rejiminin tiryəkli xütbələrindən meyxoş olaraq, vəcdə gələrək sivil, demokratik və dünyəvi Azərbaycanımızı "islam respublikasına çevirəcəkləri" ilə bağlı sərsəm, axmaq və mümkün olmayan iddialarını səsləndirməyə başlayıblar. Onların isə nə Nardaran hadisələrindəki, nə də Gəncə olaylarındakı xain, terrorçu yığnaqlarından heç bir fərqləri yoxdur. Daha dəqiq desək, onlar məhz həmin yığnaqların tör-töküntüləridirlər ki, Azərbaycanın həssas günlərində sözün əsl mənasında, ölkə, millət adına ləkə gətirirlər. Artıq onlarınkı nə ibadət, nə də iman deyil, onların əməlləri bilavasitə müstəqil dövlətimizin dayaqlarını sarsıtmağa hesablanmış satqınlıqdır. Və əlbəttə ki, Allah bu kimi əməlləri lənətləyir. Amma kimə deyirsən ki...(?!)

Bu gün Tehranın teokratiya rejimini idarə edən əyalət mollalarının təsirləri altına düşmüş insanlara nə qədər anlatsaq da ki, sizinki islamçılıq deyil, islamçılığa düşmənçilikdir, anlamayacaqlar. Çünki başlarını dumanlandırmış molla tiryəki artıq onların yollarını çoxdan azdırıb.

Bəs onlar hansı mollakratiya rejiminin qurbanlarına çevriliblər və hansı haqla 44 günlük Vətən müharibəsində torpaqlarının azadlığı uğrunda canlarını fəda etmiş oğullarımızın şəhid olmadıqlarını fars rejiminin baş mollalarının fətvaları ilə inkar etməyə başlayıblar? Demək belə çıxır ki, Azərbaycan 30 illik, sözün əsl mənasında, kafir işğalında qalmış dədə-baba torpaqlarını azad etməməliymiş? Yaxud, torpaqlarımızı işğal edərkən gorbagor edilən erməni qəsbkarları, daşnakları İranın əyalət mollaları tərəfindən "şəhid" statusuna mindirilərkən, bu ölkənin çörəyini yeyib, suyunu içən sözdə "islamçılar", "hüseynçilər", yaxud "bariz şiələr" əməldə isə radikal vəhhabidən də betər olan xainlər yığnağı ağaye Amulinin, ya da başqa islam düşmənlərinin "fətvaları" ilə razılaşmış olurlar?! Məgər ortaya belə nəticə çıxmırmı?!

Bəli, Azərbaycan müstəqil dövlətdir və milli, mənəvi, dini, mədəni dəyərlərini daim qoruyub-saxlayır, inkişaf etdirir, digər dünya ölkələrinə nümunə göstərir və ən əsası, hansı ölkələrlə dostluq edib-etməməsinə də kimlərinsə burun dürtmələrinə ehtiyac yoxdur. Xüsusilə, Tehran başbilənlərinin və onların Bakıdakı yığnaqlarının!

Və bu gün təkcə son bir-iki ildə İranın Azərbaycana qarşı törətdiyi xəyanətlərini incələyərsək, bir daha bu ünsürlərin hansı yuvanın quşları olduqlarını isbatlamış olarıq.

İran istər işğal dövrlərində, istərsə də son aylara qədər işğalçı Ermənistanı və separatçı rejimi yanacaqla təmin edib. Üstəlik, müharibə vaxtı Rusiyadan Ermənistana daşınan silah-sursat təyyarələrini öz hava məkanından buraxıb. Eləcə də quru yolunu açmaqla yük maşınlarının sürətli və rahat keçmələrinə şərait yaradıb.

İran tərəfi sərhədlərdə və Azərbaycanın müxtəlif bölgələrində vizual, eyni zamanda agentura, radioelektron kəşfiyyatını aparıb, əldə etdiyi informasiyaları erməni tərəfinə ötürüb. Özü də müharibə vaxtı və sonrakı bir il ərazində.

Xüsusilə, İran silahlı qüvvələri guya "su ehtiyatı anbarını qorumaq" bəhanəsi ilə Azərbaycanın ərazisinə keçib. Yekunda, bu həyasızlıq (!) nəticəsində Azərbaycan ordusunun əks-həmlə planının realizəsi gecikib və düşmən erməni ordusu buna qədər aldığı sarsıdıcı zərbələrdən sonra toparlanması üçün vaxt qazanıb, bu isə bizim üçün nə qədər can bahasına başa gəlib.

Bütün bunların ardınca, Tehranın "sionistlərə baza açırsınız" bəhanəsi ilə Bakıya diş qıcımaları, əzələ nümayişi sərgiləməsi, bütün bunları Ermənistana dəstək göstərmə fonunda baş verməsi...

Əlbəttə ki, qeyd edilənlər bir əyalət mollasının dediyi kimi, "İranın xidmətlərinin" hamısı deyil. Belə "xidmətlərin" hamısını bir yerə yığıb-qeydlərini aparsaq 1000 kitab bəs etməz. Belə olan halda bu gün İran teokratiyasının tiryək dozasından sərxoş olanlar hələ nə qədər vaxt varsa, ayılsınlar. Ayılsınlar və həqiqi islamın, müsəlmançılığın yoluna qayıdıb, Hz.Məhəmməd (s) peyğəmbərin "Vətəni sevmək imandandır kəlamını" dərk etsinlər.

# "İran gec-tez yanlış mövqeyini dərk edəcək"

**İranın ölkəmizə sərgilədiyi əsassız mövqe təbii ki, Azərbaycan-İran münasibətlərinin xarakteri ilə heç cür uzlaşmır. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib.**



DEPUTAT ŞƏRH ETDİ

Millət vəkilinin sözlərinə görə, nəzərə almaq lazımdır ki, Azərbaycan öz xarici siyasətini həyata keçirərkən dinc qonşuluq münasibətləri, münasibətlərin davamlı olaraq inkişaf etdirilməsi, əlaqələrin qurulması prinsiplərinə istinadə edir və İran da çox gözəl bilir ki, Azərbaycan Cənubi Qafqaz regionunda hər zaman təhlükəsizliyin, sülhün etibarlı şəkildə təmin olunması istiqamətində fədakarcasına fəaliyyət göstərir, əməkdaşlığın inkişaf etdirilməsi üçün təşəbbüslər irəli sürür və bu təşəbbüslərin həyata keçirilməsində də aparıcı rol oynayır.

"Qonşu ölkələrlə münasibətlərə Azərbaycanın olduqca həssas münasibəti olub və Azərbaycan hər zaman bütövlükdə Cənubi Qafqaz regionunda konstruktiv əməkdaşlığın qurulmasının əsas rolunda çıxış edibdir. Ermənistanın təcavüzkar mövqeyi, işğalçılıq siyasəti bütövlükdə Cənubi Qafqaz regionun təhlükəsizliyini çox ciddi təhdidlər qarşısında qoyub. Təcavüzkar Ermənistanın işğalçılıq siyasəti Azərbaycanın gücü, iradəsi, Azərbaycan Prezidentinin böyük uzaqgörənliyi, strateqlik keyfiyyətləri sayəsində aradan qalxdıqdan sonra, əslində, yaranmış yeni vəziyyət, digər region ölkələri kimi İranın da maraqlarına tam uyğun olmalıdır, uyğundur. Yaxşı xatırlayırıq ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycan-İran sərhəddi işğaldan azad edildikdən sonra Xudafərin körpüsünün yanında dayanaraq, o körpünü dostluq körpüsü adlandırdı. Yəni bu, Azərbaycanın İrana ötürmüş olduğu çox mühüm bir mesaj idi. Yəni, Azərbaycan bundan sonra qonşu İranla münasibətlərini daha sıx şəkildə inkişaf etdirmək istəyini nümayiş etdirdi. Təəssüflə qeyd etmək lazımdır ki, İran tərəfdən biz analoji mövqeyi görmədik.

Görünür, İran Cənubi Qafqaz regionunda cərəyan edən yeni geosiyasi proseslərin mahiyyətini ya düzgün dərk etmir, ya da sadəcə olaraq İran üçün Ermənistanın işğalçılıq siyasətini həyata keçirdiyi zamanlar daha məqbul hesab olunurdu. Təbii ki, əgər ikinci haldırsa, bu, təəssüf doğurur. Cənubi Qafqaz regionunda Azərbaycanın iradəsi ilə yaranmış yeni vəziyyət İrana öz maraqlarını daha etibarlı şəkildə keçirmək imkanı yaradır. Azərbaycan Prezidentinin təşəbbüsü ilə regionda altılı əməkdaşlıq platformasının həyata keçirilməsi təklif olundu, irəli sürüldü. İran yeni vəziyyətlə bağlı, yəni, Azərbaycanın yeni əməkdaşlıq təşəbbüsü ilə bağlı müsbət mövqeyini də bildirdi. Görünür, sonradan İran özü üçün narahatedici məqamlar aşkarlayıbdır. Belə bir məqamlar da ümumiyyətlə mövcud deyil. Əslində, yaranmış yeni bir vəziyyətdə İran güclü Azərbaycanla, gücünə güc qatmış Azərbaycanla əməkdaşlıq edərək daha çox özünə siyasi, iqtisadi mənada divident yönləndirə bilər.

Yaxşı bilirik ki, dünyanın əksər ölkələri ilə də, xüsusilə, Qərblə də İranın münasibətləri normaldan çoxçox uzaqdır. Belə olan halda dünyanın bütün ölkələri ilə konstruktiv siyasi münasibətlər qurmağı bacarmış, səmərəli əməkdaşlıq sistemi yaratmağı bacarmış Azərbaycanla əməkdaşlıq edərək, daha çox uğur qazanmaq olar. Bu baxımdan mən hesab edirəm ki, İran gec-tez yanlış mövqeyini dərk edəcək. Yəni, işğala məruz qalmış Azərbaycana münasibətdə ədalətsiz mövqe nümayiş etdirmək əslində, işğalçının tərəfində olmaq deməkdir. İran əgər özünün də imicinin qeydinə qalmaq istəyirsə, o regionda hər zaman nifaq yaradan, gərginlik törədən, qonşulara qarşı əsassız ərazi iddiaları irəli sürən Ermənistanın tərəfini bu dərəcədə açıq-aşkar dəstəkləməməlidir.

Bu gün 11 oktyabr tarixidir və ötən il 11 oktyabrda Erənistan Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə terror hücumları təşkil etdi. İran o Ermənistanın tərəfini saxlayır ki, onun üçün üçün heç bir beynəlxalq hüquq norması, heç bir insani dəyər mövcud deyil. Ermənistan hər zaman terroru dövlət siyasəti səviyyəsinə qaldırıbdır. Belə bir dövlətlə İranın yaxın əməkdaşlıq etməsi Ermənistanın təcavüzkar siyasətinə dəstək kimi qiymətləndirilə bilər və qiymətləndirilməlidir. Çünki Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq törədib, işğalçılıq siyasətini həyata keçirib və ərazi iddialarından bu gün də əl çəkmək fikrindən uzaqdır", deyə Elşad Mirbəşiroğlu bildirib.

***İnam Hacıyev***

# Rus jurnalist: "Şuşada ermənilər müvəqqəti olduqlarını və gec-tez oradan getməli olduqlarını başa düşdülər"



**İqor Serebryanıy: "Şuşada və Füzulinin özündə bu xarabalıqlarda təcavüz hissi var idi ki, orada heç kim yoxdur, amma qəsdən dağıdıblar və bunu qəsdən etdikdə heç bir xoş hisslər yaratmır"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

Rusiyanın nüfuzlu News.Ru xəbər saytının analitiki İqor Serebryanıy "Caliber" analitik mərkəzinə müsahibəsində Qarabağda gördükləri və Azərbaycan həqiqətləri mövzusunda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Bu yaxınlarda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində oldunuz. Səyahət təəssüratlarınız necədir?***

- Səfərimi iki hissəyə bölmək olar. Birincisi, Bakıdır. İkincisi, azad edilmiş ərazilərdir. Bakı, əlbəttə ki, zövq, qonaqpərvərlik, xoş niyyətdir. Sözün düzü, Bakıya gələndə ermənilərə qarşı bir növ pis niyyət və təcavüzkarlıq olacağını düşündüm, amma məlum oldu ki, azərbaycanlılar insanlar kimi çox mehriban və asan adamlardır. Azərbaycanlıların və ermənilərin normal münasibətləri bərpa etməsi üçün nə qədər vaxt keçməli olduğu ilə bağlı eyni sualı çoxlarına verdim və bütün insanlar mənə cavab verdilər: artıq normal münasibətlərimiz var. Gündəlik səviyyədə insanların qəzəblənmədiklərini, qisas almaq üçün susmadıqlarını eşitməkdən çox məmnun oldum. Azad edilmiş ərazilərə səfərə gəlincə, əlbəttə ki, emosional olaraq xoşagəlməz bir hiss idi, xüsusən də, Bakıdan Şuşaya gedən yolda gedərkən və işarələnmə müəyyən bir yerdə başa çatanda: demarkasiya xətti və sözün həqiqi mənasında, bir neçə kilometr uzaqda vurulmuş bir erməni tankı var idi, üzərində "Diqqət, minalar" yazılmış plakat asılıb. Gedib görürsən ki, evlər nə döyüşlərdən, nə də zaman keçdikcə dağılıb, ancaq hiss edirsən ki, qəsdən dağıdıblar və ya hansısa bir buldozer sürüb qəsdən söküblər. Hansı səbəbdən evləri dağıtmaq, yerində səhra qoymaq lazım idi, həqiqətən başa düşmədim. Bəlkə də hansısa hərbi məna var idi, amma başa düşmürəm, əgər bu torpaq işğal edilibsə, oradakı hər şeyi dağıtmaq üçün ələ keçirilməyib. Görünür, 30 ildə bir dənə də ağac əkilməyib, bir dənə də daş qoyulmayıb. Şuşada və Füzulinin özündə bu xarabalıqlarda təcavüz hissi var idi ki, orada heç kim yoxdur, amma qəsdən dağıdıblar və bunu qəsdən etdikdə heç bir xoş hisslər yaratmır. Məsələn, Bülbülün abidəsi. Abidəni niyə dağıtmaq lazımdır? Axı o, təkcə azərbaycanlı deyil, həm də tanınmış Sovet müğənnisidir- sanki ermənilər və azərbaycanlılar üçün ortaqdır. Aşkar vandalizmin əlamətləri gördüm. Bu, yüksək dərəcədə narahatedici idi.









***- Hərbi Qənimətlər Parkı sizə necə təəssürat bağışladı?***

- Bəli, Hərbi Qənimətlər Parkını da ziyarət etdik. Zədələnmiş hərbi texnikaya baxanda bunun bir növ qeyri-müəyyən mənası var. Uşaqlığımı Volqoqradda keçirdim və orada qəzaya uğramış nasist tankları da var. Yalnız Almaniya hərbi texnikası var, bir mənada parkınız buna bənzəyir və mənim üçün yeni bir şey deyildi. Buna görə də burada "bəyəndim" sözü səhvdir, çünki müharibə insanların bir-birini öldürməsidir. Bu park Azərbaycanın üzləşdiyi çətinliklərin sübutudur.

***- Azərbaycanlıların və ermənilərin sülh içində yaşaması üçün nə qədər vaxt lazımdır?***

- Burada bir il də keçə bilər və ya bir nəsil də dəyişə bilər, dəqiq tarix verilə bilməz. Doğrudan da, Bakıda danışdığım insanlarla ermənilərə qarşı heç bir düşmənçilik hiss etmədim; İnsanlar bunu bir bədbəxtlik, xəstəlik, fəlakət kimi qəbul edirlər və buna görə də biz jurnalistlər bu duyğuları soyutmaq üçün səy göstərmə imkanına sahibik. Ola bilsin ki, azad edilmiş ərazilər bərpa olunsun və onlar tam məskunlaşsın. Şuşaya gələn bir adamla danışdım. Bu adam 30 ildir evində yox idi və mənzilin sonrakı "sahibi" bu onilliklər ərzində divar kağızını belə dəyişməyən erməni həkim idi. Orada yaşayan ermənilər çox yaxşı başa düşürdülər ki, müvəqqəti olaraq ordadırlar və gec-tez oradan getməli olacaqlar və ora qayıdan azərbaycanlılar şəhəri yenidən qura, normal həyatı bərpa edə biləcəklər və sonra bu düşmənçilik tamamilə yox olacaq. İşğaldan əziyyət çəkənlər və separatçılar normal həyata qayıtmayana qədər bu düşmənçilik heç bir yerdə yox olmayacaq. Evinizə gələrək yerində xarabalıqlar görsəniz, təbii ki, bu, yaxşı hisslərə səbəb olmaz. Mən şəxsən inanıram ki, azad edilmiş ərazilərdə normal, rahat bir həyat qurulanda ermənilər və azərbaycanlılar yenidən dinc yaşaya biləcəklər.

***- Bakıda ən çox bəyəndiyiniz nələr idi?***

- Ən çox İçərişəhəri bəyəndim, turistləri cəlb edən yerdir, ilk dəfə yalnız şəkillərdə gördüyüm Qız Qalasını gördüm. Kiçik, lakin daha rahat olduğu ortaya çıxdı. Sidney Opera Evinə bənzəyən dəniz vağzalını çox bəyəndim.

***Tərcümə - Elçin Bayramlı***

# "ATƏT-in Minsk Qrupun vasitəçiliyi qəbul edilmir"

**Bir çox prinsipial məsələlərdə Avropa İttifaqının Azərbaycana dəstəyi hiss olunmaqdadır. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**

Komitə sədri vurğulayıb ki, bu dəstək tarixi qələbədən sonra özünü aydın göstərir və Azərbaycan dövləti bu yaxınlaşmaya böyük əhəmiyyət verir.

"Sülh razılaşmasında, delimitasiya, kommunikasiyaların açılmasında sözsüz ki, Avropa İttifaqı öz imkanlarından istifadə edə bilər və bu, Cənubi Qafqazda əminamanlığın, qarşılıqlı münasibətlərin möhkəmlənməsinə böyük kömək olar. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bildirir ki, "Biz Avropa İttifaqını səylərin səfərbər olması və post müharibə vəziyyətinə töhfə verilməsi prosesində böyük tərəfdaşımız və dürüst vasitəçi kimi güvənirik".




Əlbəttə, ölkələr arasında sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunması dürüst, düşünülmüş siyasət və obyektiv mövqe tələb edir. Bu gün Avropa İttifaqı bu amillərə üstünlük verdiyinə və Azərbaycanın haqlı mövqeyini, ədalətli mübarizəsini dəstəklədiyinə görə dövlətimiz də öz səmimi mövqeyini ortaya qoyubdur.

ATƏT-ə münasibət isə tamamilə fərqlidir. Çünki, bu təşkilatın Minsk Qrupu 30 ilə yaxın müddət ərzində öz vasitəçilik missiyasını ermənipərəst mövqe tutması ilə nümayiş etdirib, ona bəslənilən ümidləri doğrultmayıb, sülhə, təhlükəsizliyə, əməkdaşlığa xidmət etməyibdir. Minsk Qrupu uzun illər öz fəaliyyətini yersiz, əhəmiyyətsiz səfərlərlə ört-basdır edərək, münaqişənin həllində prinsipiallıq göstərməyib, əksinə, qarşıdurmaların kəskinləşməsinə şərait yaradıbdır. Belə olan halda, Minsk Qrupunun yenidən tərəflər arasında vasitəçilik etməsi, neytrallıq göstərməsi real görünmür və bu vasitəçiliyə ehtiyac yoxdur. Çünki, Rusiya bir vasitəçi kimi öz işini görüb və qarşıda duran ən vacib məsələlər 10 noyabr, üçtərəfli bəyanatda aydın əks olunubdur. Tərəflər də bu şərtlərin yerinə yetirilməsinə imza atıblar. Belə olan halda, daim Azərbaycanın əleyhinə işləyən ATƏT-in Minsk Qrupunun yenidən meydana atılması və fəallaşması təəsüb doğurur və haqlı olaraq cəmiyyətimiz, etimadı vaxtında doğrultmayan bir qrupun vasitəçiliyini qəbul etmir", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

SON SƏHİFƏ
SƏS
12 oktyabr
2021-ci il

# Qida mütəxəssisi: "Payızda bu qidalardan uzaq durmanız məsləhətdir"





"Ümumiyyətlə, payız mövsümündə daha çox insanlar depressiyadan əziyyət çəkirlər. Təbii ki, bu depressiya ilk olaraq mövsümün dəyişməyi yayın, isti havaların bitməsi və sərin havaların birdən-birə düşməsi ilə əlaqəli ola bilər". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova deyib.

Onun sözlərinə görə, depressiya birinci səbəblərdəndir ki, insanın immun sistemini aşağı salır: "Ona görə də yaxşı olar ki, mütləq şəkildə sağlam qidalanmamıza fikir verək. Sağlam qidalanmamız dedikdə mütləq şəkildə biz səhər yeməyimizi yeməliyik. Çünki səhər yeməyi çox önəmlidir və demək olar ki, qidalanmanın əsas hissəsini təşkil edir. Bu səbəbdən mütləq şəkildə yuxudan oyandıqdan sonra su ilə başlayıb, sonra bir saat içində səhər yeməyi yeməliyik".

Məhsəti Hüseynova sözlərinə belə davam edib: "Yaxşı olar ki, səhər yeməyində də mütləq şəkildə təzə nanə və digər göyərtilərdən istifadə edin. Pendir, yulaf əzməsi və yaxud yulafla olan sıyıqlar, meyvələr və s. mütləq səhər bunlardan istifadə etmək çox faydalı hesab olunur. Eyni zamanda günə enerjili başlamamıza səbəb olur, mütləq şəkildə maddələr mübadiləsinin yaxşı işləməsi, orqanizmin güclü olması üçün su qəbul etməliyik".

Məhsəti Hüseynova sözlərinə belə davam edib: "Adətən olur ki, yaydan payıza keçəndə havaların sərinləməsi ilə əlaqədar olaraq insanlar su qəbul etməyi azaldır və bu da zərərli maddələrin orqanizmdə yığılıb qalmasına səbəb olur. Bu da çox pis təsirlərini göstərir. Ona görə suyu vacib hesab etmək lazımdır".

"Daha sonra hər yeməkdə günorta və axşam yeməkləri də daxil olmaqla mütləq çiy tərəvəzlərdən, meyvələrdən istifadə etmək lazımdır ki, çünki onların içindəki enzimlər eyni zamanda antioksidant vitaminlər də var ki, bunlar da immun sistemini gücləndirir və təbii ki, xəstəliklərə qarşı qoruyucu olur. Payızda immun sistemi aşağı düşdüyü üçün sink tərkibli qidalar da çox faydalıdır. Bunlara badam, qoz, fındıq, fıstıq kimi quru çərəzləri göstərə bilərəm ki, insanlar mütləq onlarla da qidalansınlar. Onlar da maddələr mübadiləsini sürətləndirir, enerjili və pozitiv olmağa kömək olur".

"Uzun müddət ac qalmamağa çalışmaq lazımdır, çünki, orqanizmdə enerji çatmadıqda insanlar həm neqativ olur, həm də immun sistemi zəifləməyə başlayır və tez xəstələnir, viruslara qarşı müdafiəsiz olur. Mütləq şəkildə qapalı yerlərdə daha çox qalmamağa diqqət etməlidirlər. Xüsusilə siqaret çəkilən ortamlarda. Çünki virus və bakteriyalar bağlı, dumanlı yerlərdə daha çox qalır və daha çox tez yayılır. Ona görə də bu da xəstəliklərin yayılmasına səbəb ola bilər. Mütləq gün ərzində açıq havada qalmaq lazımdır. Ən az bir saat açıq havada olmaq lazımdır və gün ərzində gəzmək daha çox faydalı ola bilər".

*Ayşən Vəli*

# Baydenin oğlu yarım milyonluq yardım edib



ABŞ Prezidenti Co Baydenin rəssam oğlu Hunter Bayden, qalereyaya etdiyi güzəşt iddiaları ilə gündəmdədir. SİA xarici mətbuata istinadən bildirir ki, Hunter bu yay onu təmsil etmək üçün işə götürdüyü qalereyaya çox xoş münasibət bəsləyib. Buna görə "Georges Berges" adlı qalereya müqavilədən sonra 350 min dollar alıb. Bu pul pandemiyaya qarşı yardım paketindən verilib.

Qalereya keçmiş prezident Tramp dövründə keçən il eyni paketdən 150 min dollar alıb. Hunter vasitəsilə qalereyanın aldığı ümumi yardım yarım milyon dolları (500.000 dollar) keçib. Yalnız iki işçisi olan bu qalereyaya edilən yardım reaksiya toplayıb.

*Abutel İsmayıllı*

# Sərdar Ortac qorxulu anlarını "instagram" səhifəsində paylaşıb




Türkiyəli məşhur pop müğənni Sərdar Ortac uçuş zamanı qorxulu anlar yaşayıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, tur proqramlarına davam edən müğənni Sərdar Ortac, İzmir-İstanbul reysi zamanı təyyarədə yaşadığı qorxulu anları izləyiciləri ilə sosial media hesabında paylaşıb. Ortac "instagram" hesabında etdiyi paylaşımda bunları açıqladı: "İzmirdən İstanbula enməyə başladıq. Növbəti təyyarə hələ də uçuş-enmə zolağından çıxmadığı üçün enişdən bir neçə yüz metr əvvəl pisti keçdik. Dəhşətli bir təcrübə oldu. Sağ olun, sağ olun, kapitan".

*Aytac Əliyeva*

# Şeyma Subaşı bu dəfə bulanıq olmadan paylaşdı

Paylaşımları və eşq həyatı ilə gündəmdən düşməyən türkiyəli sosial media fenomeni Şeyma Subaşı son paylaşımı ilə yenidən adından söz etdirməyi bacarıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, sevgi həyatı ilə tez-tez gündəmdə olan Şeyma Subaşı, "instaqram" hesabında sevgilisi ilə öpüşdüyü anları yayımlayıb. Daha əvvəl səmimi pozalarını bulanıq edən Subaşı, bu yazıda hər şeyi açıq şəkildə yayımlayıb. "Bütün dünya bir il danışacaq" dediyi sevgilisi ilə toy üçün hazırlıqlarını davam etdirən Subaşı, sevgilisi misirli iş adamı Məhəmməd Alsaloussi ilə bəzən romantik anlarını bölüşür.

*Aytac Əliyeva*

## ELAN

Nəsimi rayonu 20 nömrəli şəhər poliklinikasının səhə həkimi Mikayıl-zadə Samirə Nəbiyevnaya məxsus "Möhür" itdiyi üçün etibarsız sayılır.

# Millimizdən bərbad göstərici: 55 ölkə arasında 50-ciyik...



Azərbaycan milli komandası DÇ-2022-nin seçmə mərhələsində ən bərbad nəticə göstərən 6 komandadan biridir. Qol.az xəbər verir ki, 6 turdan sonra millimizin ehtiyatında cəmi 1 xal var. Seçmə mərhələnin Avropa zonasının 10 qrupunda ümumilikdə 55 komanda yarışır. 55 komandadan 49-u Azərbaycandan daha artıq xal toplayıb. Onların arasında Farer adaları (4 xal), Malta (4), Andorra (3) kimi cırtdan ölkələr də var.

Canni de Byazinin komandası ilə yanaşı 6 və 7 turdan sonra cəmi 1 xal toplayan daha 3 komanda var. Bunlar Gürcüstan, Moldova və Lixtenşteyndir. 2 komanda – Cəbəllütariq və San-Marinonun isə ümumiyyətlə, xalı yoxdur. Millimiz 6 oyuna 1 xal toplamaqla yanaşı, 3 qol vurub və 12 qol buraxıb. Beləliklə, ümumi göstəriciyə əsasən, komandamız hazırda 55 milli arasında 50-cu yeri tutur.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**